**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYGÜN ELDAR qızı QULİYEVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONAL İNKİŞAF PROQRAMLARININ MALİYYƏ-KREDİT TƏMİNATI VƏ ONUN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**Bakı - 2018**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| **Rəsmi opponentlər:** | AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor<br>**Əli Xudu oğlu Nuriyev**<br><br>iqtisad elmləri doktoru, professor<br>**Afət Tərlan oğlu Əhmədov**<br><br>iqtisad elmləri doktoru, professor<br>**Zahid Fərrux oğlu Məmmədov** |
| **Aparıcı təşkilat:** | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu |

Müdafiə 23 iyun 2018-ci il tarixdə saat $11^{00}$-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.02.018 Birləşdirilmiş Dissertasiya Şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

*Ünvan: AZ 1148, Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi 23.*

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat «__» _____ 2018-ci ildə göndərilmişdir.

**FD.02.018 Birləşdirilmiş Dissertasiya Şurasının elmi katibi, i.ü.f.d., dosent:** **H.S.Şamilova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə kifayət qədər və vaxtında maliyyə-kredit təminatı, maliyyə resurslarından səmərəli istifadə davamlı inkişafın mühüm şərtidir. Buna görə də istehsal və xidmət sahələrinin maliyyə təminatının yaxşılaşdırılması, bu sahələrdə maliyyə resurslarından səmərəli istifadə həmişə sosial-iqtisadi inkişafın aktual problemləri sırasında olmuşdur. Dünyada maliyyə-iqtisadi böhranın davam etdiyi, maliyyə resurslarına tələbatın sürətlə artdığı, maliyyə resurslarının çatışmazlığı və davamlı inkişafın maliyyə-kredit təminatı daim gündəlikdədir. Bu problem Azərbaycanın regionlarında, xüsusilə aktualdır. Azərbaycanda davamlı inkişafın ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərinə keçmişdir. Bu o deməkdir ki, yaxın gələcəkdə milli iqtisadiyyatın davamlı və səmərəli inkişafı, qeyri-neft sektorunun nə dərəcədə davamlı və səmərəli inkişafından, maliyyə resurslarının səfərbərliyə alınmasından və səmərəli istifadəsindən asılı olacaqdır. Qeyri-neft sektorunun, onun inkişaf imkanlarının əsasən Azərbaycanın regionlarında təmərküzləşdiyini nəzərə alsaq, regionların maliyyə-kredit təminatının yaxşılaşdırılması, maliyyə resurslarından səmərəli istifadə məsələlərinin çox aktual olduğunu göstərir.

Regionun sosial - iqtisadi inkişaf imkanlarının, ilkin yanaşmada onun təbii- coğrafi şəraiti, resurs təminatının səviyyəsi və xarakteri ilə əlaqədar olduğu şübhə doğurmur. Bununla belə, bu və ya digər regionun sosial-iqtisadi inkişaf potensialının fəallaşdırılmasında innovasiyaların, o cümlədən texniki-texnoloji innovasiyaların artan rolu, yaxın perspektivdə həmin amillərin, yüksək ehtimalla təbii-coğrafi amilləri üstələyəcəyini söyləməyə əsas verir. Məsələ ondadır ki, ərazi inkişafı üzrə aparılmış son tədqiqatların nəticələrinin ilkin təhlili regional sosial-iqtisadi bərabərsizliklər və təbii-coğrafi fərqlər arasında əlaqələrin ölkənin iqtisadi qüdrəti artdıqca əhəmiyyətli dərəcədə zəiflədiyini, eyni zamanda maliyyə-kredit təminatının və texniki-texnoloji yeniliklərin tətbiqinin genişlənməsini göstərir.

Ölkə regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi sayəsində makroiqtisadi tərəqqinin dəstəklənməsinin maksimum səmərəliliyi tarazlı regional inkişaf modellərinin tətbiqi nəticəsində əldə oluna bilər. Tarazlı regional inkişaf modellərinin hazırlanması, tətbiq dairəsinin müəyyən edilməsi və tətbiqi mükəmməl metodiki və informasiya təminatı sayəsində həll edilir. Azərbaycanda regionların sosial-iqtisadi inkişafı üzrə formalaşmış dövlət proqramları sistemində qeyd edilən metodiki və informasiya təminatı mühüm rol oynamışdır. Belə ki, istehsal potensialının regionlar arasında optimal bölgüsünün, infrastruktur şəbəkəsinin modernləşdirilməsinin, regionlararası inteqrasiyanın gücləndirilməsinin, regionların təbii və rəqabət

üstünlüklərinin reallaşdırılmasının, insan resurslarının inkişafının, sosioekosistemin dayanıqlığının təmin edilməsinin nəzəri-metodoloji və təcrübi problemləri öz həllini gözləyir. Mövcud təcrübə, onun təkmilləşdirilməsi zərurəti və qarşıya qoyulan vəzifələr Azərbaycan Respublikası regionlarının inkişafının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi imkanlarının aşkar edilməsini obyektiv zərurətə çevirir.

Bu zərurət əsasən ondan irəli gəlir ki, regional inkişaf proqramlarının hazırlanması və icrası son 10 ildə Azərbaycan regionlarının davamlı inkişafının, bütövlükdə respublikanın sosial-iqtisadi inkişaf sahəsində qazandığı nailiyyətlərin əsasıdır. Belə ki, qeyd edilən müddətdə ölkədə həyata keçirilən uğurlu islahatlar siyasəti iqtisadiyyatın həcminin əhəmiyyətli genişlənməsinə, əhalinin sosial rifahının yüksəldilməsinə, sosial-iqtisadi infrastrukturun tamamilə müasirləşdirilməsinə imkan vermişdir. 2004-2015-ci illər ərzində real olaraq orta hesabla 10,6% iqtisadi artım müşahidə edilmiş, ÜDM-in nominal həcmi isə 7,6 dəfə artmışdır. Dövr ərzində adambaşına ÜDM-in həcmində 6,5 dəfə artım olmuşdur ki, bu da Azərbaycanı dünya ölkələri arasında 134-cü yerdən 79-cu yerə yüksəltmiş, əhalinin sosial rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Yoxsulluq səviyyəsi 2004-cü ildəki 40,2 faizdən 4,9 faizə enmişdir.

Respublikada reallaşdırılmış iqtisadi islahatlar ölkənin qlobal reytinq göstəricilərinin əhəmiyyətli yüksəlməsi ilə də müşahidə olunmuşdur. Təsadüfi deyildir ki, Dünya Bankının “Doing Business” hesabatına görə Azərbaycan 2009-cu ildə dünyanın “lider islahatçı dövləti” kimi qiymətləndirilmişdir. Dünya İqtisadi Forumunun “2016-2017-ci illər üzrə qlobal rəqabətlik hesabatı”na görə Azərbaycan 2006-cı illə müqayisədə 27 pillə irəliləyərək 138 ölkə arasında 37-ci mövqedə qərarlaşmışdır. Həmin hesabata əsasən Azərbaycan makroiqtisadi mühitin keyfiyyəti göstəricisinə görə dünyada 39-cu, əmək bazarının səmərəliliyi üzrə 26-cı, milli gəlirin ÜDM-ə nisbəti üzrə 37-ci, infrastrukturun keyfiyyətinə görə isə 55-ci yerdədir. Beynəlxalq təcrübəyə və Azərbaycanın yerli şəraitinə uyğun olaraq proqramlar, konsepsiyalar hazırlanması və icrası respublikamızda davamlı və tarazlı inkişafın başlıca təşkilati - iqtisadi vasitəsi kimi davam etməkdədir və gələcəkdə də davam edəcəkdir. Məhz sosial - iqtisadi inkişafın belə gedişi respublikamızda regional inkişaf proqramlarının hazırlanması və icrası sahəsində toplanmış təcrübəni, xüsusilə də proqramların icrası üçün son dövrlərdə daha böyük aktuallıq kəsb edən maliyyə-kredit təminatı ilə əlaqədar toplanmış təcrübəni təhlil etməyi, müvəffəqiyyətləri göstərməklə yanaşı, problemləri də aşkara çıxarmağı, maliyyə-kredit təminatının daha da yaxşılaşması və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanmasını obyektiv zərurətə çevirir. Qeyd edilən məsələlər Azərbaycan

Respublikasının regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında və 6 dekabr 2016-cı il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektiv inkişafı üzrə strateji yol xəritəsində öz əksini tapmışdır. Strateji yol xəritəsində qeyd edilir ki, Azərbaycanda 2022-ci ilə qədərki dövrdə maliyyə sektorunda qısa müddətli sabitləşmə təmin ediləcək, orta müddətli dönəmdə struktur islahatları ilə inkişaf gücləndiriləcək, uzun müddətli dönəmdə isə maliyyə sektoru qlobal müstəvidə açıq rəqabətə hazırlanacaqdır. Ölkədə maliyyə sektorunda islahatların region dövlətlərinə nisbətən daha sürətlə artması xarici investisiya cəlbini genişləndirməklə milli iqtisadiyyatın dayanıqlı inkişafına təkan verəcəkdir.

Azərbaycanın regional qovsaq kimi mövqeyinin güclənməsi üçün səmərəli infrastruktura yüksək səviyyədə investisiya qoyuluşu davam etdirəcəkdir. Azərbaycanın iqtisadiyyatının sürətli inkişafı bütün regionlarda sosial-iqtisadi inkişaf proqramlarının tətbiqinin maliyyə-kredit təminatı yüksələcəkdir. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirir və onun praktiki əhəmiyyətini göstərir.

**Problemin öyrənilmə vəziyyəti.** Ölkədaxili regional bərabərsizliyin aradan qaldırılmasında tənzimləmə sisteminin və regional inkişaf modellərinin nəzəri-metodoloji və praktiki problemlərinin geniş tədqiqi regional potensialın fəallaşdırılması istiqamətində ciddi addımlar atmağa imkan vermişdir. İnkişaf etmiş ölkələrin sosial-iqtisadi inkişafında regional qeyri-bərabərliyin mənfi nəticələri, həmin ölkələrdə elmi potensialı bu istiqamətdə səfərbər etmiş və nəticələr özünü çox gözlətməmişdir. Regional inkişaf proqramlarının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi problemlərinin ayrı-ayrı aspektlərinin tədqiqində Nadirov A.A., Səmədzadə Z.Ə., Nuriyev Ə.X., Musayev A.F., İbrahimov E.R., Abbasov İ.M., Quliyev E.A., Ataşov B.X., Sadıqov M.M., Salahov S.V., Əhmədov A.T., Balayev R.Ə., İbrahimov İ.H., Sultanova R.P., Mahmudov M.M., Hacıyev Y.A., Həsənli Y.H., Hüseynova X.M. və bir sıra digər Azərbaycan alimləri əhəmiyyətli xidmətlər göstərmişlər.

Xarici ölkə alimləri sırasında Perloff M.S., Hollis Chenery, Siebert H., Rossensteyn-Rodan P.N., Abraliyev O.A., Brovkina L.İ., Fetisov Q.Q., Kostıleva L.V., Korçaqina E.V.,Qranberq A.Q., Qorşenina E.V., Leksin V.N., Livşits AşY., Mannapov R.Q., Morozova T.Q., Oleynik O.S., Rıkova İ.İ., Ryabuşkin B.T., Sısoeva E.F., Smirnov V.V., Turqel İ.D., Valentey S.D. və bir sıra alimlərin rolu xüsusi qeyd edilməlidir.

Bununla belə, sadalanan və bir sıra digər müəlliflər məqsəd kimi öz qarşılarına regionların sosial-iqtisadi inkişafının və regional inkişaf proqramlarının maliyyə-kredit təminatının yaxşılaşması və səmərəliliyinin yüksəldil-

məsi problemlərinin həllini qoymamışlar. Odur ki, regionların sosial-iqtisadi inkişafının və regional inkişaf proqramlarının maliyyə-kredit təminatının yaxşılaşdırılması məsələlərinin kompleks tədqiqinə ciddi ehtiyac duyulur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın başlıca məqsədi regionların sosial-iqtisadi inkişafının maliyyə-kredit təminatının səmərəliliyini şərtləndirən mühiti, Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası gedişini, müvafiq proseslərin maliyyələşdirilməsi vəziyyətini və nəticələrini qiymətləndirməklə, ölkədə regional inkişaf proqramlarının maliyyə-kredit və investisiya təminatı sisteminin təkmilləşməsi və səmərəliliyinin yüksəldilməsi prioritetlərini elmi cəhətdən əsaslandırmaq və onların reallaşdırılmasının istiqamət və vasitələrini müəyyən etməkdir.

Qarşıya qoyulan məqsəd baxımından aşağıdakı əsas vəzifələr müəyyən edilmişdir:

- regional sosial-iqtisadi inkişafın konseptual əsaslarının, regionların inkişaf prioritetlərinin əsaslandırılmasının metodiki və informasiya təminatının səciyyələndirilməsi;
- regional inkişaf proqramlarının maliyyə-kredit təminatının formalaşmasının və inkişafının nəzəri-metodoloji aspektlərinin tədqiqi;
- Azərbaycanın investisiya potensialından istifadənin regional aspektləri və investisiya siyasətinin reallaşdırılmasının vasitələrinin və infrastruktur elementlərinin tətbiqinin regional mühitinin xarakteristikası;
- tarazlı regional inkişafın investisiya təminatının iqtisadi və institusional aspektlərinin araşdırılması, investisiya potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanlarının aşkar edilməsi;
- Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illər və 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının maliyyələşmə mənbələrinin və icrası nəticələrinin qiymətləndirilməsi;
- Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası mühitinin, regional iqtisadiyyatın maliyyə-kredit təminatının formalaşması vəziyyətinin səciyyələndirilməsi;
- regional istehsal və resurs potensialının istifadə prioritetlərinin reallaşdırılmasında bankların rolunun müəyyən edilməsi, regionlarda banklar şəbəkəsinin təşəkkülü proseslərinin tempi və proporsiyalarını şərtləndirən amillərin aşkara çıxarılması;
- tarazlı regional inkişafın və bank fəaliyyətinin dayanıqlığının birgə tənzimləmə sisteminin formalaşması imkanlarının aşkar edilməsi;
- regionların inkişafı proqramlarının maliyyə-kredit təminatı sisteminin səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi;

- istehsalın şaxələndirilməsi imkanlarının qiymətləndirilməsi və regionlarda innovasiyalı-intensiv inkişafa adekvat investisiya siyasətinin prioritetlərinin əsaslandırılması;

- sosial-iqtisadi inkişafın sürətləndirilməsi üzrə həyata keçirilən tədbirlər sayəsində regional multiplikasiya effektinin gücləndirilməsi və dövlətin iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi üzrə təkliflərin hazırlanması.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikası regionları və müxtəlif istiqamətlərdə fəaliyyət göstərən istehsal və xidmət qurumları təşkil edir.

**Tədqiqatın predmeti** regionların sosial-iqtisadi inkişafının meyilləri və qanunauyğunluqları, maliyyə-kredit təminatının mövcud səviyyəsini şərtləndirən amillər və həmin təminatın səmərəliliyinin yüksəldilməsinin üsul və vasitələridir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** Azərbaycanın və xarici ölkə alimlərinin regional iqtisadiyyatın, regional dövlət proqramlarının, regionların inkişafının maliyyə-kredit təminatının səmərəliliyinin qiymətləndirilməsinin, proqram-məqsədli yanaşmanın nəzəri və praktik məsələlərinə dair tədqiqatları, Milli Məclisdə qəbul edilmiş qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış və təsdiq edilmiş metodoloji-normativ aktlar, İqtisadiyyat, Maliyyə, Kənd Təsərrüfatı nazirliklərinin materialları təşkil edir.

Tədqiqat prosesində statistik təhlil, qruplaşdırma, ümumiləşdirmə və müqayisə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat, Kənd Təsərrüfatı və bir sıra digər nazirliklərin məlumatları, iqtisadi, o cümlədən regional iqtisadi fəaliyyəti tənzimləyən qanunvericilik və normativ aktlar, monoqrafik tədqiqatlar, müxtəlif səviyyəli elmi-nəzəri və elmi-praktik konfrans materialları, şəxsi müşahidə materialları və internet resurslar təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- regional inkişafın maliyyə-kredit təminatının təşəkkülü və inkişafının nəzəri-metodoloji müddəaları əsaslandırılmışdır;

- regional inkişafın sürətləndirilməsi meyarları əsaslandırılmış, vasitələri və infrastruktur elementləri müəyyən edilmişdir;

- disbalanslı regional inkişaf modellərindən tarazlı regional inkişaf modellərinə keçidin obyektiv zəruriliyi əsaslandırılmışdır;

- ölkədaxili regionların sosial-iqtisadi inkişafı prioritetlərinin əsaslandırılmasının metodiki və informasiya aspektləri dəqiqləşdirilmişdir;

- tarazlı regional inkişafın investisiya təminatının iqtisadi və institusional aspektlərinin birgə araşdırılması sayəsində, investisiya potensialından regional miqyasda daha səmərəli istifadə imkanları aşkar edilmişdir;

- Azərbaycan Respublikasında regionların 2004-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə iki dövlət proqramının icrasının nəticələrini qiymətləndirməklə, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası mühiti, o cümlədən maliyyə-kredit təminatı aspektində qiymətləndirilmişdir;

- regionlarda banklar şəbəkəsinin təşəkkülünü şərtləndirən amillər təhlil edilməklə, regional istehsal və resurs potensialının istifadə prioritetlərinin reallaşdırılmasında bankların rolunun artırılması imkanları aşkar edilmişdir;

- tarazlı regional inkişaf və bank fəaliyyətinin dayanıqlığının birgə tənzimləməsi imkanları aşkar edilmiş, həmin imkanların gerçəkləşdirilməsi istiqamətləri göstərilmişdir;

- regional inkişaf proqramları sisteminin maliyyə-kredit təminatının səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən olunmuşdur;

- ölkə və region səviyyəsində istehsalın şaxələndirilməsi imkanları aşkar edilmiş, innovasiyalı-intensiv inkişafa adekvat regional investisiya siyasətinin prioritetləri əsaslandırılmışdır;

- regionlarda sosial-iqtisadi inkişafın multiplikasiya effektinin gücləndirilməsi və milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi üzrə təklif və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Tədqiqatlardan çıxarılmış nəticələr və əsaslandırılmış təkliflər regional inkişaf proqramlarının maliyyə-kredit və investisiya təminatı sisteminin təkmilləşdirilməsində, ölkə regionlarının sosial-iqtisadi inkişafının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi problemlərinin həllində istifadə oluna bilər.

Dissertasiyada əsaslandırılmış elmi nəticə, təklif və tövsiyələr Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi prosesində, habelə milli iqtisadiyyat və onun sektorlarının inkişafı üzrə strateji yol xəritələrinin həyata keçirilməsində, əldə edilmiş müddəa, nəticə və təkliflərin iqtisadçıların, maliyyəçilərin və regionşünaslıq üzrə mütəxəssislərin hazırlanması üzrə tədris proqramlarında istifadəsi məqsədəuyğundur.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** Tədqiqat işinin əsas nəticələri Azərbaycan Dövlət Aqrar Universitetində keçirilən beynəlxalq elmi-praktiki konfransların (Gəncə, 2014, 2016) və Respublika elmi-praktiki konfransın materiallarında (Gəncə, 2014), AMEA-da keçirilən beynəlxalq konfransın materiallarında (Bakı, 2017), "Regional inkişafın investisiya siyasəti: formalaşma və reallaşma məsələləri" (Bakı,

2014), “Regional inkişafın maliyyə-kredit təminatı problemləri” (Bakı, 2014), “Tarazlı regional inkişaf və dayanıqlı bank fəaliyyətinin birgə tənzimlənməsinin metodiki və informasiya aspektləri” (Bakı, 2015), “The role of banks in the implementation of the priorities of regional potential” (USA, Chicaqo, 2016), “Possibilities to increase efficiency in the utilization of investment policy in the sustainable development of regions” (Praha, 2016), “The Diversification of Production and the priorities of the adequate investment policy to the innovation-intensive development in the regions” (Türkiyə, 2016), “Пути повышения эффективности финансово-кредитного обеспечения региональных программ социально-экономического развития” (Moskva, 2017), “Regional sosial-iqtisadi inkişafın maliyyə təminatı sisteminin təkmilləşdirilməsi məsələləri” (Bakı, 2017), “Problems of financial and investment support modelling of the regional social and economic development” (Thomson Reuters, 2017) adlı məqalələri, “Regional sosial-iqtisadi inkişafın konseptual məsələləri” (Gəncə, 2014), “Regional resurs potensialından səmərəli istifadə mühitinin formalaşması və maliyyə vasitəçiliyi amili” (Gəncə, 2016), “Regionlarda istehsalın şaxələndirilməsinin investisiyalaşdırılması prioritetləri” (Bakı, 2017) adlı elmi məqalələrdə və “Regional sosial-iqtisadi inkişaf proqramları: maliyyə-kredit təminati və səmərəlilik” adlı monoqrafiyada (Bakı, 2017) öz əksini tapmışdır.

Tədqiqat dövründə dissertasiyanın mövzusu Azərbaycan Dövlət Aqrar Universitetinin elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmuş, aktual problem kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə olunmuşdur.

Dissertasiyanın əsas nəticələri, təklif və tövsiyələri Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi tərəfindən bu qurumların təşkilatları və təsərrüfat subyektlərində istifadə üçün qəbul edilmişdir (22 fevral 2018-ci il 121 saylı və 21 fevral 2018-ci il 31/15-114 saylı arayışlar).

Dissertasiya işinin mövzusu üzrə ölkə və xarici nəşrlərdə ümumi həcmi 28,5 çap vərəqi həcmində 25 adda elmi əsərlər çap edilmişdir.

**Dissertasiya işini quruluşu və həcmi.** Tədqiqat işi giriş, beş fəsil, nəticə və istifadə olunmuş 236 adda ədəbiyyat siyahısından ibarətdir, dissertasiyanın ümumi həcmi 243 səhifə olmaqla, mətndaxili 20 cədvəl və 4 şəkil verilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Dissertasiya işini girişində** mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, predmeti və obyekti, nəzəri-metodoloji əsasları, informasiya bazası, elmi yeniliyi, təcrübi əhəmiyyəti, tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması şərh olunmuşdur.

**"Regionların sosial-iqtisadi inkişafının maliyyə-kredit təminatının nəzəri-metodoloji problemləri" adlı birinci fəsildə** regional sosial-iqtisadi inkişafın konseptual əsasları araşdırılmış, regional inkişaf prioritetlərinin əsaslandırılmasının metodiki və informasiya təminatı xarakterizə edilmiş, regional inkişafın maliyyə - kredit təminatının elmi-nəzəri və təcrübi problemləri tədqiq olunmuş, regional inkişafın investisiya siyasətinin meyarları, vasitələri və infrastruktur təminatının aktual elmi-nəzəri və təcrübi problemlərinə münasibət bildirilmişdir.

Hazırda, kifayət qədər intensiv xarakter almış ölkədaxili və ölkələrarası miqrasiyaların xarakteristikalarının qiymətləndirilməsi və tənzimlənməsinə, yalnız iqtisadi məqsədəuyğunluq baxımından yanaşılması, iqtisadiyyatın nəinki regional, hətta milli səviyyədə inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan vermir. Müxtəlif ölkələrdə regional inkişafın tempi və miqyasındakı fərqləri şərtləndirən amillərin özünəməxsusluğu, onların xarakteristikasında ümumi və ya çoxları tərəfindən qəbul edilən yanaşmaların mümkünlüyünü istisna etmir. Ölkədaxili regional qeyri-bərabərliyi şərtləndirən amillərin təsiri altında formalaşan mühitin təhlili regionun sosial - iqtisadi inkişaf potensialının təbii-coğrafi şəraitlə əlaqədar olduğunu, bununla belə, həmin potensialın fəallaşdırılmasında texniki-texnoloji və digər innovasiyaların rolunun artması; ölkədaxili regional təbii - coğrafi və sosial-iqtisadi bərabərsizlikləri şərtləndirən amillər arasında korrelyasiya əlaqələrinin zəifləməsi; şaxələndirilmiş regional iqtisadiyyatın, innovativ xarakterli kommersiya texnologiyalarının tətbiqi şəraitində səmərəliliyinin tədricən yüksəlməsi; intensivləşən inteqrasiya şəraitində eyni istehsal amilindən, eyni (müsbət) nəticənin əldə edilməsi imkanlarının artması üzrə mühüm faktları aşkara çıxarmışdır.

Regionu ölkədaxili ərazi vahidi, daha doğrusu ortaq idarəetmə problemlərinə, habelə oxşar iqtisadi, sosial və fiziki xassələrə malik, orta şəhərləri (ölçü baxımından) böyük ərazi kimi qəbul edənlərin mövqeyi artıq bir neçə onilliklərdir ki, praktiki cəhətdən kifayət qədər məqbul hesab edilir. Bununla belə, haqqında bəhs olunan və indiyə qədər də ətrafında müzakirələrin davam etdiyi mövqeni, regiona iqtisadi fəaliyyət məkanı kimi məhsuldar yanaşma hesab etmək çətindir. İqtisadi baxımdan region ərazisində ictimai is-

tehsalın eyni element və komponentləri yerləşən və inkişaf edən areal kimi baxılması, xeyli dəqiqləşdirmə tələb etməsinə baxmayaraq işgüzar fəallığın vahid və yığcam məkanı, tənzimləmə obyekti və s. kimi sonrakı məhsuldar araşdırmalara şərait yaradır.

Tarazlı regional inkişaf modellərinin əsasında müasir bazar sisteminin bir çox mühüm əhəmiyyətli sosial və ekoloji problemləri həll etmək iqtidarında olmaması durur. Eyni zamanda, bazara zidd olan cərəyanların sıradan çıxdığını və hətta əhəmiyyətli dərəcədə zəifləməsini də söyləmək çətindir. Odur ki, son onilliklərdə regional inkişafın, əsasən iqtisadi məqsədəuyğunluq meyarlarını önə çəkən, resursların bərabər bölgüsünün inkişafın motivlərini zəiflətməsi tezisini önə çəkərək, bazara birbaşa dövlət müdaxiləsinin yolverilməzliyi fikrinə əsaslanan disbalanslı regional (qeyri-tarazlı) inkişaf nəzəriyyələrinin təkamülü müşahidə olunmuşdur.

Regionun resurs və istehsal potensialından istifadə səviyyəsi və başqa regionlardan xammal və digər resursların gətirilməsi vəziyyəti araşdırılarkən aşağıdakı məsələlər diqqət mərkəzində olmalıdır: yerli xammaldan istifadə vəziyyəti və onun yaxşılaşdırılması imkanlarının qiymətləndirilməsi, əlverişli vasitələrin müəyyən edilməsi, prioritet istiqamətlərin əsaslandırılması; regionlararası istehsal-texnoloji əlaqələrin optimallaşdırılması məqsədilə istifadəsi tələb olunan informasiya massivlərinin strukturlarının unifikasiyası, məhdudiyyət şərtləri və məqsəd funksiyalarının texniki-iqtisadi əmsallarının hesablanması prosesində empirik və evristik yanaşmaların üzvi vəhdətinin təmin edilməsi; ortaq potensiallı regionlar arasında istehsal-iqtisadi, iqtisadi-texnoloji və digər əlaqələrin dayanıqlığı dərəcəsinin qiymətləndirilməsi və i.a. Daha sonra ilə regionda həll edilən problemlərin vəziyyətindəki dəyişikliklər (monitorinq göstəriciləri, addım-addım aparılan təshihlərin nəticələri), yeni problemlərin yaranması halları (ehtimallar, amillərin təsir mühitində meydana çıxan və həmin amilləri mühityaratma qabiliyyətindən məhrum edən ziddiyyətlər və s.) təhlil edilir.

Optimal xarakteristikalara malik strategiyanın seçilməsi regionun sosial-iqtisadi inkişafı konsepsiyasının hazırlanmasında sonuncu əsas mərhələ olmaqla aşağıdakıları əhatə etməlidir: reallaşdırılması mümkün hesab edilən bütün inkişaf strategiyalarının müqayisəli təhlili, həmin strategiyaların daha əlverişlisinin-ətraf mühitdə baş verən dəyişikliklərə adekvat reaksiya vermək imkanlarında ifadə olunan universallıq, inkişafın kompleksliyi, resurslardan səmərəli istifadə, əsas funksiyaların regional səviyyədə icrası meyarlarının seçilməsi, seçilmiş strategiyanın daxili və xarici təsirlər altında təhdidlərə məruz qalması ehtimalının qiymətləndirilməsi, konsepsiyadan imtinaya səbəb ola biləcək əsas proses və hadisələrin müfəssəl xarakteristikası.

Ölçü xarakteristikaları və regionun haşiyəsinin kəmiyyət parametrlərinə dair metodiki qaydalar isə, öz növbəsində təsnifat əlamətlərinin seçimini əhəmiyyətli dərəcədə şərtləndirmiş olur. Bu baxımdan ölkədaxili regionların statik və dinamik təsnifatı əlamətlərinə münasibət bildirilməsi, zənnimizcə, xüsusi diqqətə layiqdir. İlk növbədə, onu deyək ki, regionların statik təsnifat əlamətləri onları homogen, qütbləşmiş və planlaşdırılmış kimi fərqləndirməyə imkan verir.

Regionların inkişaf səviyyəsini xarakterizə edən əlamətlər qismində, ilk növbədə, konkret regionda istehsal (habelə, investisiya) fəallığının ölkə üzrə orta səviyyədən yüksəkliyini, məhsul buraxılışında hazır məhsulların payının üstünlük təşkil etməsini, ölkə üzrə orta səviyyə ilə müqayisədə adambaşına gəlir səviyyəsinin yüksək olmasını, müsbət miqrasiya saldosunu, orta səviyyə ilə müqayisədə səhiyyə, təhsil, sosial və mədəni xidmətin əhatə dairəsinin genişliyini və keyfiyyətcə üstünlüyünü qeyd edə bilərik.

Regional siyasətin sosial-iqtisadi inkişaf konsepsiyasına uyğun məqsədlərə, regionun rəqabət qabiliyyətinin inkişafı üçün şərait yaradılması, o cümlədən, resursların adekvat bölüşdürülməsi, istehsal potensialının fəallaşdırılmasının optimal temp və miqyasının müəyyən edilməsi; regionda iqtisadi artımın sürətləndirilməsi və həyat keyfiyyətinin yüksəldilməsi üçün sosial problemlərin həllinə imkan verən infrastrukturun yaradılması və ya modernləşdirilməsi; milli çərçivədə vahid iqtisadi məkan yaradılması üçün ortaq potensiallı və qonşu olmayan regionlararası inteqrasiyanın ən müxtəlif aspektlərinin gücləndirilməsi; insan resurslarının inkişafı, məşğulluğun səviyyəsinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi, kadr hazırlığının və ekoloji vəziyyətin yaxşılaşdırılması, ekoloji təmiz texnologiyaların geniş istifadəsini nəzərdə tutan məqsəd funksiyalarını aid etmək olar.

Regionların sosial-iqtisadi inkişafının səmərəliliyinin yüksəldilməsi imkanlarının dəyərləndirilməsində və reallaşdırılmasında klaster təşəbbüslərinin əsas vektorları, o cümlədən, aşağıdakı istiqamətlər və məsələlər xüsusi diqqətə layiqdir: istehsal fəaliyyətinin məkan və zaman birgəliyi; insan ehtiyatlarının əsas parametrlər üzrə (demoqrafik davranışdan tutmuş, kadr hazırlığına qədər) yaxşılaşdırılması; təchizat zənciri və müştərək logistika fəaliyyəti; resurslardan və infrastruktur imkanlarından optimal istifadə üzrə region iqtisadiyyatında klaster təşəbbüslərin reallaşdırılması məsələlərinin həlli imkanlarının qiymətləndirilməsi; klasterial inkişaf xüsusiyyətlərini, allokasiya effektini reallaşdırma imkanlarını və s. nəzərə alan tənzimləmə sisteminin formalaşdırılması.

Azərbaycanda ayrı-ayrı regionların iqtisadi fəaliyyət istiqamətləri üzrə ixtisaslaşmasının əsas parametrlərinin optimallaşdırılması imkanlarının qiymətləndirilməsi və reallaşdırılması məsələlərinin həlli üçün müasir riyazi-iq-

tisadi üsullardan istifadə edilməli, bu məqsədlə zəruri metodiki və informasiya təminatının formalaşdırılması prosesi daha sürətlə və kompleks surətdə davam etdirilməlidir. Mütərəqqi informasiya-kommunikasiya texnologiyalarından istifadə arealı genişləndirilməli, üstünlük verilən istiqamətlərdə, o cümlədən neyroinformatikanın və süni intellektual sistemlərin inkişafının fəal dəstəklənməsi mexanizmi formalaşdırılmalı, sadalanan istiqamətlərdə həyata keçirilən işlərin gedişində beynəlxalq əlaqələrin intensivləşdirilməsi üçün zəruri tədbirlər görülməli, müvafiq kadr hazırlığı, ixtisasartırma prosesləri təşviq edilməlidir.

Regionların sosial-iqtisadi inkişafı səviyyəsinin qiymətləndirilməsi, onların inkişafının prioritet istiqamətlərinin əsaslandırılması və reallaşdırılmasının metodiki təminatının təkmilləşdirilməsi, daha əlverişli metodiki yanaşmaların işlənib hazırlanması üçün, ilk növbədə, meyarlar əsaslandırılmalıdır. Həmin meyarlar qismində, zənnimizcə, ilk növbədə: makroiqtisadi göstəricilərin regiondaxili, regionlararası proseslərlə əlaqələrinin əyaniliyi; sosial-iqtisadi inkişafın daha geniş rakursda, əsas parametrlərin daha detallaşdırılmış surətdə səciyyələndirilməsi; əsas regional xüsusiyyətlərin, universal yanaşma tələbləri müstəvisində nəzərə alınması; müqayisələrin metodiki və informativlik baxımından məqbul rahatlığının təmin edilməsi vurğulanmalıdır.

Sadalanan meyarlara əsaslanan metodiki təminat, araşdırmalardan və artıq əldə edilmiş təcrübən göründüyü kimi, çox böyük ehtimalla məcmu regional məhsulun yaranmasının ərazi xüsusiyyətlərindən irəli gələn istehsal strukturunu müəyyən etməyə, resurslardan istifadənin regional mühitini xarakterizə edən elementləri, həmin mühiti şərtləndirən çoxsaylı amilləri kifayət qədər ətraflı qiymətləndirməyə, regionun innovasiyalı-intensiv inkişaf imkanlarını ilkin yanaşmada müəyyənləşdirməyə imkan verəcəkdir.

Proqnozlaşdırmanın evristik üsullarının metodiki bazası qismən formallaşan, informasiya bazasında isə bilik bloku üstünlük təşkil edir. Bununla belə, təhlil və proqnozlaşdırmanın, hazırda mütərəqqi hesab edilən bütün üsullarında modelləşdirmənin, bu və ya digər dərəcədə tətbiqi, informasiyanın emalında şəbəkə texnologiyalarının geniş istifadəsini nəzərdə tutmalıdır. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafının maliyyə-kredit təminatı göstəriciləri xüsusi diqqətə layiqdir. Regionun investisiya tələbatını və investisiya potensialını xarakterizə etmək üçün, mövcud beynəlxalq təcrübədə, əsasən aşağıdakı göstəricilərdən istifadə edilir: konkret regionda adambaşına məcmu (regional) məhsul və əsas fondlar; regionun ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi; ölkənin ümumi daxili məhsulu; əsas kapital vahidinə, deyək ki, 1 manata düşən əsas fondlar; məcmu regional məhsulun 1 manatına düşən əsas kapitala investisiyalar; konkret ölkədaxili regionda və ölkə üzrə ümumilikdə əsas kapitala investisiyaların miqdarı.

Həmin bazada inkişafın konkret mərhələsində yeni sayılan texnika və texnologiyalar və onların tətbiqi şəraiti xarakterizə edilməli, müqayisə üçün baza hesab edilən texniki-texnoloji vasitələrin əsas xarakteristikaları dəqiqləşdirilməli, istehsal-texnoloji prosesləri xarakterizə edən birbaşa, dolayı və xərc əmsallarının hesablanmasında unifikasiya olunmuş yanaşmalardan istifadə edilməli, innovasiya ehtiyaclarının öyrənilməsi və təhlil üzrə informasiya modullarının dinamik dəyişən mühitə adaptasiya imkanları artırılmalı və bu məqsədlə, müvafiq məhdudiyyət şərtləri detallaşdırılmalı, yaxın perspektivə texniki-iqtisadi parametrlər proqnozlaşdırılmalıdır.

Regionun iqtisadi potensialını iqtisadi-riyazi modelləşdirilməsi, ekonometrikanın və regionşünaslığın nisbətən az öyrənilmiş sahəsidir. Bunun səbəblərindən biri regional iqtisadiyyatın özünəməxsusluq dərəcəsinin yüksək olması aid edilə bilərsə, digər səbəblərə iqtisadi-riyazi üsul və modellərin unitar dövlətlər üzrə regional iqtisadiyyat tələblərini, demək olar ki, nəzərə alınmaması, iqtisadi proseslərin kəmiyyət xarakteristikalarının, xüsusilə, konkret zaman və məkanda keyfiyyəti ifadə etmək məcburiyyətində olan kəmiyyət xarakteristikalarının heç də həmişə birmənalı olmaması, iqtisadi, iqtisadi-təsərrüfat, iqtisadi-texnoloji əlaqələrin "ünvanlılıq" prinsipinin pozulması və i.a. aid edilməlidir.

Müvafiq mənbələrdə ölkədaxili regionun iqtisadi potensialını iqtisadi-riyazi modelləşdirməklə, onun inkişaf prioritetlərinin müəyyən olunmasının metodiki və informasiya aspektlərinə xüsusi diqqət yetirilmişdir. Belə ki, qurulması tövsiyə olunan model və modellər sisteminin məhdudiyyət şərtlərini konkretləşdirmək üçün regionun iqtisadi potensialını səciyyələndirən göstəricilər müəyyən olunmuş, modellərin strukturu müəyyən edilərkən regionun əlaqələri, istehsal və resurs potensialı nəzərə alınmış, təklif edilən iqtisadi-riyazi modellər sisteminin reallaşdırılması üçün instrumental vasitələr tövsiyə olunmuşdur.

Analitik hesablamalar, bütöv bir alqoritmik altsistemi ehtiva etməklə növbəti mərhələdə həyata keçirilir. Bu məqsədlə, mütləq kəmiyyətlərdə region iqtisadiyyatının cari vəziyyətini səciyyələndirən göstəricilər, habelə sahələrarası əlaqələr təhlil olunur. Aparılmış tədqiqatlar və müvafiq mənbələrin təhlili regionda innovasiyalı inkişafın informasiya təminatının formalaşdırılması üçün həlli zəruri olan məsələlərin mərhələlərlə həll edilməsi məqsədəuyğun olduğunu söyləməyə əsas verir (Şəkil 1).

Regionda innovasiyalı inkişafın informasiya sisteminin qurulması məqsədilə innovasiyalı informasiya iqtisadiyyatı regional səviyyədə strukturlaşdırılmalı, innovasiya və informasiya infrastrukturu şəbəkəsinin inkişafı istiqamətləri və vasitələri müəyyən edilməli, innovasiyalı inkişafın maliyyə

| | | |
|---|---|---|
| Mərhələlər | | |
| | | |
| 1. milli informasiya sisteminin regional strukturlaşdırılması<br>2. milli innovasiya sisteminin regional strukturlaşdırılması | | innovasiyalı iqtisadiyyatın regional strukturlaşdırılması informasiya |
| | | |
| 3. regionda innovasiyalı inkişaf prioritetlərinin və onların təşviqi istiqamətlərinin əsaslandırılması | | 3.1. innovasiya və informasiya infrastrukturu şəbəkəsinin inkişafı istiqamətləri və vasitələrinin müəyyən edilməsi<br>3.2. regionda və milli iqtisadiyyat çərçivəsində rəqabət qabiliyyəti daha yüksək olan məhsul və proses innovasiyalarının seçilməsi<br>3.3. innovasiyalı inkişafın maliyyə stimullaşdırılması sisteminin əsas elementlərinin və həmin sistemin reallaşdırılması mexanizminin qurulması |
| | | |
| 4. əqli mülkiyyətin idarə edilməsi üzrə informasiya sistemlərinin qurulması | | 4.1. innovasiyaların reallaşdırılması şəraitinin yaxşılaşdırılması;<br>4.2. regionda rəqabətqabiliyyətli məhsul buraxılışının artırılması;<br>4.3. əqli mülkiyyətin iqtisadiyyata cəlb edilməsi;<br>4.4. Özəl kapitalın elmi işlərin maliyyələşdirilməsinə cəlb edilməsi və onların innovasiya səviyyəsinə çatdırılması |
| | | |
| 5. texnologiya transferləri üzrə informasiya sistemlərinin qurulması | | 5.1. İkili (çox təyinatlı) texnologiyaların inkişafı;<br>5.2. regionun informasiya və əqli potensialından istifadə səmərəliliyinin yüksəldilməsi;<br>5.3. mülki və hərbi bölmələrin tərəfdaşlığının gücləndirilməsi;<br>5.4. səmərəli regional innovasiya sisteminin qurulması |
| | | |
| 6. regional informasiya-innovasiya portalının yaradılması | | 6.1. regionun vahid informasiya fəzası modelinin, elmi-texniki informasiyanın elektron versiyaları şlüzünün, elektron müştərilərin xidmətinin, elektron kitabxana və fondların, informasiya axtarışı və təhlili sistemi və s. yaradılması. |
| | | |
| 7. elmi-texniki fəaliyyətin monitorinqi bloku;<br>8. əqli mülkiyyət obyektlərinin uçotu və onlar üzərində nəzarət blok;<br>9. informasiya-analitik fəaliyyət bloku | | |
| | | |
| 10. Ekspertiza bloku | | 10.1. elmi-texniki ekspertiza; 10.2. maliyyə-iqtisadi ekspertiza |
| | | |
| 11. regionda innovasiyalı inkişafın əqli mülkiyyətin idarə edilməsi və texnologiya transferləri üzrə sistemləri əhatə edən informasiya sisteminin qurulması | | |

**Şəkil 1. Regionda innovasiyalı inkişafın informasiya təminatının formalaşdırılması mərhələləri**

stimullaşdırılması sisteminin əsas elementləri təyin olunmalı və həmin sistemin reallaşdırılması mexanizmi qurulub başa çatdırılmalıdır.

Əqli mülkiyyətin idarə bölüşdürücü xarakteri daşıyan maliyyə təkrar istehsalın aparıcı anlayışı olmaqla, maliyyə münasibətləri həm milli, həm də regional səviyyədə istehsal münasibətlərinin, ümumilikdə iqtisadi fəallıq mühitinin mühüm tərkib hissəsidir. Regionometrikanın təşəkkülü tarixinin araşdırılması regional inkişafda önə çəkilən nəqliyyat amilinin rolunun, onun kapital, əmək, torpaq amillərindən asılılığının nəzərə alınması metodikasından, daha doğrusu, onun mükəmməlliyi dərəcəsindən asılı olduğunu söyləməyə əsas verir. Məsafə amilinin kapital, əmək və torpaq amillərindən asılılığının nəzərə alınması metodikasının mükəmməlliyi, başlıca olaraq tətbiq edilən üsullardan və onların əhatə dairəsindən asılı olaraq müəyyənləşdirilə bilər.

Tarazlı regional inkişafın prioritet olduğu müasir dövrdə regionların inkişafının maliyyə - kredit təminatı məsələləri xüsusi aktuallıq kəsb edir. Azərbaycanda ilk növbədə, bu regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi üzrə davamlı proqramların həyata keçirilməsi şəraitində, regional fərqlərin azaldılması istiqamətində atılan uğurlu addımlarda regional maliyyənin artan rolu ilə əlaqədardır. Digər amil qismində, hüquqi və demokratik dövlət quruculuğu şəraitində idarəetmədə əks-mərkəzləşmə meyillərinin güclənməsi qeyd olunmalıdır.

Regional maliyyə siyasətinin prioritetlərinə, ilk növbədə, maliyyə risklərinin azaldılması, regionun investisiya cəlbediciliyini yüksəldilməsi və onun maliyyə potensialının gücləndirilməsi aid edilir.

Milli və regional səviyyədə sosial-iqtisadi inkişafın maliyyə təminatında ekoloji vergi mexanizminin rolu, müvafiq hüquqi-normativ bazanın vəziyyəti və təşəkkülü meyillərindən asılıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yerli əhəmiyyətli ekoloji vergilər və cərimələr regional maliyyələşmənin ciddi mənbəyi ola bilər. Digər tərəfdən ekoloji təmiz istehsal və digər fəaliyyət növü ilə məşğul olan regional müəssisələr üçün güzəştli və imtiyazlı rejimin yaradılması regionda ətraf mühiti qoruma fəaliyyətini stimullaşdırmaqla, həyatın keyfiyyətinə mühüm müsbət təsir göstərir.

İnkişaf etmiş ölkələrdə intensivləşmənin ətraf mühitə neqativ təsirinin aradan qaldırılması tədbirlərinin maliyyələşdirilməsində ənənəvi mənbələrlə yanaşı, ekoloji innovasiyaların və yaşıl iqtisadiyyatın inkişafı fondlarının iştirakı üzrə dəyərli təcrübə əldə edilmişdir. Həmin fondlar dövlət büdcəsinin, büdcədənkənar fondların və digər mənbələrin vəsaitləri hesabına yaradılır. Ekoloji innovasiyaların və yaşıl iqtisadiyyatın inkişafı fondlarının yaradılmasında ekoloji vergilər və ekoloji reqlamentləşdirmədən daxil olan vəsaitlər mühüm rola malikdir.

Regionların dayanıqlı inkişafının təminatı baxımından, perspektivli sayılan istiqamətlərdən biri təsərrüfatçılıqda, eyni zamanda həmin təsərrüfatçılığın maliyyə-kredit təminatında hərtərəfli əsaslandırılmış kreativ yanaşmalara üstünlük verilməsidir. Həmin yanaşmaların innovasiyalı inkişaf proqramları çərçivəsində reallaşdırılması üzrə qabaqcıl xarici təcrübənin öyrənilməsinə diqqət artırılmalıdır. Analoji inkişaf səviyyəsində olan ölkələrlə müqayisədə reallaşmamış böyük potensial, əslində dinamik inkişaf edən ölkəmizdə maliyyə innovasiyalarının tətbiqi imkanlarının genişliyinə dəlalət edir. Artıq sınaqdan çıxmış innovasiyalı maliyyə alətləri və vasitələrinin tətbiqi, məlum olduğu kimi, istehsal və resurs potensialından daha səmərəli istifadə müstəvisində alternativ axtarışı xərclərini azaldır.

İnvestisiya siyasəti milli çərçivədə sosial-iqtisadi inkişaf, o cümlədən regional inkişaf strategiyasının gerçəkləşdirilməsi vasitəsi kimi, ölkə regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün görülən kompleks tədbirlərin ümumi və xüsusi maliyyə təminatı məsələlərinin həllinə xidmət edir. Region iqtisadiyyatının, o cümlədən burada baş verən investisiya proseslərinin səmərəliliyi, xərclərin qarşılanması sisteminin mükəmməlliyi və resurslara qənaət səviyyəsi ilə bilavasitə əlaqədar olub, təcrübədə investisiya siyasətinin meyarlarının əsaslandırılması mühitini formalaşdırır. İnvestisiya siyasətinin səmərəliliyi investisiya mühitinin normativ-hüquqi bazasının vəziyyətindən, onun fundamental prinsiplərə cavab verməsi, dinamik reallığın sosial-iqtisadi və digər tələblərinə adekvat reaksiya vermək qabiliyyətindən, həlledici dərəcədə asılıdır. İnvestisiya mühitinin təşəkkülündə ölkənin və onun ayrı-ayrı regionlarının istehsal və resurs potensialı, əhalinin alıcılıq qabiliyyəti, fəaliyyətdə olan vergi-gömrük mexanizmi, milli valyutanın məzənnəsi, infrastrukturun inkişaf və modernləşdirməyə ehtiyac səviyyəsi, inflyasiya və bu kimi bir sıra digər iqtisadi və sosial xarakterli amillər həlledici rola malikdir. Regional investisiya siyasətinin reallaşması mühitinin səmərəliliyi maddi və qeyri-maddi xarakterli təsirə malik amillərlə şərtlənir. Maddi xarakterli amillər qismində, ilk növbədə infrastrukturun, o cümlədən investisiya infrastrukturunun vəziyyəti və inkişaf imkanları qeyd edilməlidir.

Regional səviyyədə investisiya siyasətinin reallaşması mühitinin səmərəliliyi investisiya infrastrukturunun inkişaf səviyyəsindən, onun modernləşdirməyə ehtiyacı dərəcəsindən, innovasiyalı fəaliyyətin tələblərinə uyğunluğundan və bu kimi bir sıra digər amillərdən asılıdır. Bu baxımdan, ilk növbədə onu vurğulayaq ki, nəinki milli, habelə regional səviyyədə investisiya qoyuluşlarının dinamikasının, məlum olduğu kimi məcmu tələbə, məcmu tələbin dəyişməsinin isə, öz növbəsində məşğulluğun səviyyəsinə birbaşa və əhəmiyyətli təsir imkanları vardır. Həmin imkanların reallaşması mühiti isə

investisiya cəlbediciliyi və investorun konkret iqtisadi fəaliyyət obyektinə münasibəti ilə yanaşı, habelə dövlətin investisiya siyasətinin bu və ya digər regionda prioritetləri ilə şərtlənir.

Dövlətin investisiya siyasəti, onun iqtisadi və sosial inkişaf siyasətinin tərkib hissəsi olmaqla, müəssisə, regional və sahə investisiya siyasətinin kumulyativ xarakteristikalarını ehtiva edir. İnvestisiya fəaliyyətinin ərazi təşkilini, iqtisadi artımın məkan xüsusiyyətlərinin reallaşdırılmasının regional aspektlərini əhatə etməklə regional investisiya siyasəti, özünəməxsus və mühüm rol oynayır. Haqqında danışılan özünəməxsusluğu şərtləndirən başlıca amillərə, ilk növbədə aşağıdakılar aid edilməlidir: - müqayisəli üstünlüklərin regional unikallığı amili və onu şərtləndirən mühit yaradan komponentlərin özünəməxsusluğu; milli miqyasda vahid iqtisadi məkanın formalaşması və inkişafında regionun əhəmiyyətini səciyyələndirən əsas göstəricilərin dəyişmə amplitudunun genişliyi; yanaşı regionların, əhəmiyyətli ortaq potensialından istifadənin imkanlarının gerçəkləşdirilməsi sayəsində maddiləşən aqlomerasiya effektinin əldə edilməsi variantlarının müxtəlifliyi; infrastruktur şəbəkəsinin inkişaf səviyyəsindəki ciddi regional fərqlər; ölkədaxili regionların təbii-iqlim şəraitinin müxtəlifliyi; tədqiq olunan ərazidə, əsasən texnoloji-iqtisadi birgəlik hesabına reallaşa bilən allokasiya effekti; regionların investisiya potensialının fəallaşdırılması imkanlarından və həmin imkanların reallaşdırılması arealından və dərəcəsindən asılı olaraq, investisiyaların maliyyələşdirilməsi rejimlərinin müxtəlifliyi və i.a.

Regional investisiya siyasətin formalaşması və həyata keçirilməsi sisteminin struktur aspektlərinə münasibətdə qeyd edək ki, regionun inkişafının investisiya siyasətinin hazırlanması və həyata keçirilməsi üçün ilk növbədə regional investisiya siyasətinin hazırlanması və reallaşdırılması mexanizmini formalaşdıran amillər müəyyən edilməli və vaciblik dərəcəsinə görə düzülməli, sonra regional investisiya siyasətin formalaşmasının ayrı-ayrı mərhələləri üzrə reallaşdırılması nəzərdə tutulan addımların əsas xarakteristikaları dəqiqləşdirilməli, daha sonra isə regional investisiya siyasətinin məqsədlərinə nail olma vasitələri seçilməlidir (Cədvəl 1).

Regional inkişafın, o cümlədən investisiya proseslərinin tempi və innovasiyalı xarakteri, ilk növbədə: - mütərəddid inflyasiya şəraitində əsas fondların yenidən qiymətləndirilməsinin optimal dövriliyinin təmin olunması; əsas fondların funksional təyinatından asılı olaraq, onlara əsaslandırılmış münasibətin təmin edilməsi; tezləşdirilmiş amortizasiya rejiminin səmərəliliyini şərtləndirən bütün tamamlayıcı komponentlərin mövcudluğu tələblərinin nəzərə alındığı mühitdə formalaşır.

**Cədvəl 1.**

**Regional investisiya siyasətinin formalaşması və həyata keçirilməsi sisteminin strukturu**

<table>
<tr><td>Regional investisiya siyasətinin hazırlanması və reallaşdırılması mexanizmini formalaşdıran amillər</td><td>Regional investisiya siyasətinin formalaşması mərhələləri</td><td>Regional investisiya siyasətinin məqsədlərinə nail olma vasitələri</td></tr>
<tr><td>Regionda investisiya iqlimini müəyyən edən amillər</td><td>investisiya siyasətinin məqsədləri və prioritetlərinin müəyyən edilməsi</td><td>İdarəetmənin iqtisadi, inzibati, sosial-psixoloji üsulları kompleksi</td></tr>
<tr><td>Regionun investisiya potensialının təşəkkülünü əks etdirən göstəricilər</td><td>Regional investisiya proqramının hazırlanması</td><td rowspan="3">Mexanizmin fəaliyyətinin:<br>- hüquqi təminat sistemi<br>- təşkilati təminat sistemi<br>-informasiya təminatı sistemi</td></tr>
<tr><td>İnvestisiya risklərinin səviyyəsini səciyyələndirən amillər</td><td rowspan="2">Regional investisiya siyasətinin reallaşdırılması mexanizminin prinsiplərinin işlənib hazırlanması</td></tr>
<tr><td>Digər daxili və xarici təsir amilləri</td></tr>
</table>

İnvestisiya resurslarının səfərbər edilməsi və istifadəsinin səmərəliliyi investisiya bazarının təşəkkülü və inkişafının infrastruktur şəbəkəsinin innovasiyalara açıqlığının məqbul səviyyəsi və həmin səviyyənin davamlı olaraq təmin edilməsi imkanlarının reallığı, fəaliyyət ahəngdarlığı, investisiya resurslarının səfərbər edilməsi və istifadəsi sistemində transaksion məsrəflərin azaldılması meyillərinin reallığını təsdiqləyən mükəmməl mexanizmin fəaliyyəti kimi amillərlə əlaqədardır.

Şaxələndirilmiş regional iqtisadiyyatın tələblərinə adekvat investisiya bazarının infrastrukturu, ilk növbədə, institusional baxımdan, kompleks əmələ gətirməyən sahələrarası virtual münasibətlərin maddiləşməsi prosesinin sürətləndirilməsi üçün səmərəli dəstək sisteminin mövcud olması, iqtisadi-texnoloji innovasiyaların mənimsənilməsi üçün ümumi təyinatlı və ixtisaslaşdırılmış regional iqtisadi-texnoloji komponentlərin funksional müstəvidə uzlaşdırılması, investisiya proseslərinə xidmət qurumlarının, ümumilikdə investisiya infrastrukturunun fəaliyyətinin ahəngdarlığının təmin edilməsi kimi tələblərə cavab verməlidir.

**"Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası" adlı ikinci fəsildə** "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-

2008-ci illər) icrasının nəticələri təhlil edilmiş, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2009-2013-cü illər) icrası və hər iki regional inkişaf proqramının nəticələri qiymətləndirilmiş, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2014-2018-ci illər) icrası mühiti xarakterizə olunmuşdur.

Tədqiqat göstərir ki, ÜDM-in real həcmi 2004-2008-ci illər ərzində 2,6 dəfə artaraq 38 milyard manat təşkil etmişdir. Həmin dövrdə ÜDM-in adambaşına düşən nominal həcmi isə 5 dəfə artaraq 4440 manat çatmışdır. ÜDM-də qeyri-dövlət sektorunun payı regional inkişaf üzrə birinci proqramın icrasının sonuncu ilinin, başqa sözlə, 2008-ci ilin yekun məlumatlarına görə 84,5 faiz olmuşdur. Belə ki, 2004-2008-ci illər ərzində milli iqtisadiyyatın qeyri-neft sektoru 1,8 dəfə artmışdır. Qeyri-neft sektorunun üstün inkişafının prioritet olaraq bəyan edilməsi, həmin sektorun maliyyələşdirilməsi sistemində də müvafiq təshihlərlə müşayiət olunmuşdur. Təkcə onu demək kifayətdir ki, ölkədə qeyri-neft sektoruna qoyulan investisiyanın həcmi son beş ildə 6,2 dəfə artmış və ümumi investisiyaların strukturunda onun payı 2008-ci ildə 69 faizə çatmışdır. Halbuki həmin göstərici cəmi beş il əvvəl, yəni 2003-cü ildə 26,8 faiz təşkil edirdi.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrası sayəsində ölkə əhalisinin rifahını xarakterizə edən göstəricilərdə də ciddi müsbət nəticələr əldə edilmişdir. Əhali gəlirləri 2008-ci ildə 2003-cü illə müqayisədə 4 dəfə artmışdır. Müqayisə edilən dövrdə muzdla işləyənlərin orta aylıq əmək haqqının artım (3,5 dəfə) tempi inflyasiya səviyyəsini üstələmişdir. 2004-2008-ci illər ərzində Azərbaycanda 766 mindən çox yeni iş yeri açılmışdır. Onların 548 min daimi iş yerləridir. Həmin dövrdə ölkədə ümumilikdə 27,5 mindən çox yeni müəssisə yaradılmışdır. Yeni yaradılmış müəssisələrin 40%-ə qədəri regionlarda fəaliyyət göstərir.

İnfrastrukturun bərpası və inkişafı, əhalinin və müəssisələrin elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması üçün regionlara irihəcmli dövlət investisiyaları yönəldilmiş və müvafiq istiqamətlərdə böyük addımlar atılmışdır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004-2008-ci illər) çərçivəsində təhsil və səhiyyə şəbəkələri modernləşdirilmişdir. Təkcə 2004-2008-ci illər ərzində, başqa sözlə regionların sosial-iqtisadi inkişafı üzrə birinci dövlət proqramının icrası dövründə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 6991 sahibkarlıq subyektinə 323,4 milyon manat kredit təqdim olunmuşdur.

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının icrasının qiymətləndirilməsi üzrə indikatorlarının müəyyən edilməsi həyata keçirilən tədbirlərin səmərəliliyinə birmənalı

münasibətə imkan verir. Həmin imkanlar, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) icrası prosesində qazanılan təcrübə sayəsində kifayət qədər dolğun istifadə edilir. Belə ki, regionların sosial-iqtisadi inkişafı proqramları və digər proqram-məqsədli yanaşma nümunələrinin həyata keçirilməsi dövründə start anından, hədəfə çatana qədər bütün mərhələlərdə fəaliyyətin ardıcıl qiymətləndirilməsi həyata keçirilmiş və keçirilməkdədir. Proqramlı fəaliyyətin hər bir mərhələsinin qiymətləndirilməsi, növbəti addımların sistemli təshih edilməsi və nəticə etibarı ilə hədəfə çatma mərhələlərinin sayını azaltmağa və hər bir mərhələ üzrə icra müddətini qısaltmağa, maddi, maliyyə və əmək resurslarından səmərəli istifadəyə, bunun nəticəsində allokasiya effekti yaratmağa, transaksion məsrəfləri, fəaliyyət ahəngdarlığı tələblərinə uyğun strukturlaşdırmağa və nəticə etibarı ilə minimuma endirməyə, perspektiv parametrlərin kəmiyyətcə birmənalı müəyyən edilməsinə və ümumilikdə proqnozların etibarlılığını artırmağa, əlaqələrin davamlılığını təmin etməyə şərait yaradır.

Regionların sosial-iqtisadi inkişafı üzrə birinci Dövlət Proqramı çərçivəsində həyata keçirilmiş tədbirlərin və bir sıra digər kompleks xarakterli tədbirlərin icrası nəticəsində yaranan yeni imkanların davamlı olaraq reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" növbəti beş ildə məhsuldar qüvvələrin daha səmərəli yerləşdirilməsi, regional iqtisadiyyatın inkişafının temp və proporsiyalarının optimallaşdırılması və bir sıra digər istiqamətlərdə görüləcək geniş miqyaslı işlərin prioritetlərini və vasitələrini müəyyənləşdirmişdir.

Regional inkişaf üzrə I və II dövlət proqramlarının həyata keçirilməsi dövründə müvafiq normativ-hüquqi bazasının təkmilləşdirilməsi tədbirləri kompleks xarakterli olmuş, sistemli şəkildə həyata keçirilmişdir. Belə ki, haqqında danışılan dövrdə ölkənin ayrı-ayrı şəhər və rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə 240 sərəncam imzalanmışdır. Normativ-hüquqi bazasının təkmilləşdirilməsi və səmərəli iqtisadi mexanizm sayəsində 2003-2013-cü illər ərzində həyata keçirilən regional siyasət makroiqtisadi inkişaf göstəricilərinin ciddi surətdə yaxşılaşmasında mühüm rol oynamışdır. Haqqında danışılan dövrdə ÜDM-in məbləğinin 3,2 dəfə, adambaşına ÜDM-in məbləğinin 2,8 dəfə artmasında, ölkə iqtisadiyyatının qeyri-neft sektorunun 2,6 dəfə artmasında, hərtərəfli əsaslandırılmış iqtisadi inkişaf və investisiyalaşdırma strategiyasının digər komponentləri ilə yanaşı, regional inkişaf siyasətinin də rolu böyük olmuşdur.

Regionların sosial-iqtisadi inkişafı üzrə I və II Dövlət Proqramlarının icrası dövründə insanların sosial rifahının yüksəldilməsi və həyat keyfiyyəti-

nin yaxşılaşdırılması istiqamətində görünməmiş nailiyyətlər əldə olunmuşdur. Belə ki, həmin dövrdə Azərbaycanda 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmışdır. Həmin iş yerlərinin 80%-ə qədəri regionlarda açılmışdır. 2003-2013-cü illər ərzində ölkədə minimum əmək haqqı 11,7 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildə 44,7% olduğu halda, 2013-cü ildə 5,3 faizə düşmüşdür.

Regional inkişaf proqramlarının icrası dövründə yaradılmış, innovasiyalı inkişafın texnoloji və digər aspektlərdə dəstəklənməsi və innovasiyalı inkişafın institusional təminatının yaxşılaşdırılmasında mühüm funksional təyinata malik Sumqayıt Kimya Sənaye və Balaxanı Sənaye Parklarının, Sumqayıt Texnologiyalar Parkının və Yüksək Texnologiyalar Parkı həlledici rol oynamaqdadır. Regionlarda iki dövlət proqramının həyata keçirilməsi dövründə əhalinin və müəssisələrin təbii qazla təchizatının yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində yaşayış evlərinin qazlaşdırma səviyyəsi 34%-dən 84%-ə yüksəlmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2003-2013-cü illər ərzində çəkilmiş və ya təmir edilmiş qaz xətlərinin uzunluğu 40 min kilometrə yaxın olmuşdur.

I və II regional inkişaf proqramlarının icrası dövründə 19,1 min sahibkarlıq subyektinə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 1,2 milyard manat güzəştli kredit verilmişdir ki, bu da 110 min yeni iş yerinin açılmasına imkan yaratmış, məşğulluğun strukturunu yaxşılaşdırmışdır.

İndi isə iqtisadi rayonlar üzrə II regional inkişaf proqramının icrası dövründə əldə olunan nəticələri müxtəsər şərh edək. Abşeron iqtisadi rayonunda sənaye məhsulu istehsalı həmin dövrdə, faktiki qiymətlərlə dəyər ifadəsində 2 dəfəyə qədər artmışdır. 2009-2013-cü illərdə sosial-iqtisadi inkişaf Dövlət Proqramının icrası dövründə əsas kapitala yönəldilən investisiyaların artım tempi daha yüksək (3,1 dəfə) olmuşdur. İqtisadi rayonda regionların inkişafı üzrə II dövlət proqramının icrası dövründə açılmış iş yerlərinin sayı 63% artmış, ondan daimi iş yerlərinin xüsusi çəkisi yüksəlmişdir. Aran iqtisadi rayonunda sənaye müəssisələrinin sayı azalsa da, məhsul istehsalı 50%-ə qədər artmışdır. 2009-2013-cü illər ərzində Aran iqtisadi rayonunda əsas kapitala yönəldilən investisiyalar 3,5 dəfə, istifadəyə verilmiş əsas fondların dəyəri isə 3,7 dəfə artmışdır. Qeyd edilən illər ərzində Dağlıq Şirvan iqtisadi rayonunda faktiki qiymətlərlə sənaye məhsulu istehsalı 39% artmışdır. Bu artım istifadəyə verilmiş əsas fondların dəyərinin 34,4% azalması və əsas kapitala yönəldilən investisiyaların cəmi 3,5% artması fonunda baş vermişdir. İqtisadi rayonda sosial inkişafın tempində də artım təmin edilmişdir. Gəncə-Qazax iqtisadi rayonunda 2009-2013-cü illər ərzində fəaliyyət göstərən sənaye müəssisələrinin sayı azalsa da, sənaye məhsulu istehsalı faktiki qiymətlərlə 2,0 dəfə, əsas kapitala yönəldilən in-

vestisiyalar 2,6 dəfə artmışdır. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası dövründə Quba-Xaçmaz iqtisadi rayonunda əsas kapitala yönəldilən investisiyalar 61,4%, sənaye məhsulu istehsalı isə 34,6% artmışdır. 2009-2013-cü illərdə Lənkəran iqtisadi rayonunda əsas kapitala yönəldilən investisiyalar 4,5 dəfə, sənaye məhsulu istehsalı isə 53,8%, yeni iş yerlərinin sayı dəfələrlə artmışdır, o cümlədən daimi iş yerlərinin xüsusi çəkisi xeyli yüksəlmişdir. 2009-2013-cü illərdə Şəki-Zaqatala iqtisadi rayonunda əsas kapitala yönəldilmiş investisiyalar 6,1 dəfə, istifadəyə verilmiş əsas fondlar 3,8 dəfə, sənaye məhsulu istehsalı isə 55,5% artmışdır. Həmin dövrdə Şəki-Zaqatala iqtisadi rayonunda açılmış iş yerlərinin sayı artmış, burada daimi iş yerlərinin xüsusi çəkisi yüksəlmişdir. Yuxarı Qarabağ iqtisadi rayonunda yerli xammalın hasilatı və ilkin emalı müəssisələrinin sayı bir qədər artmış, regionların sosial-iqtisadi inkişafı üzrə II Dövlət Proqramının sonuncu 2013-cü ilində sənaye məhsulu istehsalı əvvəlki illə müqayisədə 22,8% artmışdır. 2003-2013-cü illər ərzində qaçqın və məcburi köçkünlər üçün 77 müasir qəsəbə salınmışdır. Həmin qəsəbələrdə 166 min məcburi köçkün (37 min ailə) mənzillə təmin edilmişdir. Yuxarı Qarabağ iqtisadi rayonunda, qeyd edilən illər ərzində, əsas kapitala yönəldilən investisiyalar 3,1 dəfə, sənaye məhsulu istehsalı 77,5% artmışdır.

Kənd təsərrüfatı respublikanın iqtisadiyyatında mühüm yer tutur. Ümumi iqtisadi fəal əhalinin 38,1%-i bu sahədə çalışır. Kənd təsərrüfatının dayanıqlı inkişafı və milli ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından dövlət ölkədə iri taxılçılıq təsərrüfatlarının yaradılmasını məqsədəuyğun hesab etmiş, bütün zəruri hazırlıq işlərinin aparılması üçün tapşırıqlar vermişdir. O cümlədən, bu məqsədlə Sabirabad, Neftçala, Qax, Salyan, Biləsuvar və Göygöl rayonlarında seçilmiş ərazilərdə torpaq istifadəçiləri müəyyən edilmişdir. Artıq Beyləqan və Ağcabədi rayonlarında özəl iri taxılçılıq təsərrüfatları yaradılmışdır. Həmin təsərrüfatlarda kifayət qədər yüksək məhsuldarlıq (hektardan 55 sentner) əldə olunmuşdur. Respublikanın digər rayonlarında da iri taxılçılıq təsərrüfatlarının yaradılması istiqamətində işlər, sistemli surətdə davam etdirilir. Hacıqabul, Beyləqan, Xaçmaz və Cəlilabad rayonlarında iri həcmli təsərrüfatların yaradılması üzrə işlər başa çatdırılır.

İnfrastrukturun inkişafında ciddi artım əldə olunmuş, tikinti və yenidənqurma işlərinin miqyası genişləndirilmiş, sosial proqramların icrası daha da sürətləndirilmişdir. Göstərilənləri ümumiləşdirərək qeyd etmək olar ki, “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” uğurla, bəzi istiqamətlərdə isə artıqlaması ilə yerinə yetirilmişdir.

Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası mühitini səciyyələndirərkən, ilkin yanaşmada: milli iqtisadiyyatın ümumi vəziyyətini bütün əsas parametrlər üzrə qiymətləndirməli; makroiqtisadi sabitliyi şərtləndirən amillərin təsirinin dayanıqlığı dərəcəsi müəyyən edilməli; milli və regional iqtisadiyyatın dayanıqlı inkişafı imkanları, o cümlədən regionlararası əlaqələrinin dayanıqlığı kəmiyyət və keyfiyyət baxımından xarakterizə edilməli; "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı"nın (2004-2008-ci illər) və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticələri qiymətləndirilməli; ayrı-ayrı regionlar üzrə resurs və istehsal potensialının xarakteristikaları, həmin potensialın fəallaşdırılması mühitinin səciyyəsi verilməli; regionlar üzrə potensial investisiya layihələrinin əsas parametrləri müəyyən edilməli; regionların sosial-iqtisadi inkişafında investisiyalardan istifadə səmərəliliyinin mövcud səviyyəsi müəyyən olunmalı; tarazlı regional inkişafın təminatında səmərəli və dayanıqlı maliyyə vasitəçiliyinin, başqa sözlə, maliyyə-kredit sisteminin fəaliyyətinin, o cümlədən bankların regional iqtisadiyyata nüfuz etməsi prosesinin tənzimləməsi sisteminin formalaşması səviyyəsi müəyyənləşdirilməli; region səviyyəsində istehsalın, ümumilikdə iqtisadi fəaliyyətin şaxələndirilməsi dərəcəsi müəyyən edilməli; regional investisiya siyasətinin innovasiyalı-intensiv inkişafa adekvatlığı dərəcəsi müəyyənləşdirilməli; regionlarda sosial-iqtisadi inkişafın multiplikasiya effekti yaratma imkanları qiymətləndirilməli; regionların sosial-iqtisadi inkişaf proqramlarının maliyyə-kredit təminatının xarakteri müəyyən edilməlidir.

Regionların sosial-iqtisadi inkişafı üzrə III Dövlət Proqramının icrasının ikinci ilinin yekunları iqtisadiyyatın qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin üstün inkişafını göstərdi. Belə ki, neft hasilatçısı olan ölkədə qeyri-neft sənayesində bir ildə əldə edilən artım 8,4% təşkil etmişdir.

2014-2016-cı illər ərzində kənd təsərrüfatı təyinatlı maşın, qurğu və avadanlıqlar yenilənmiş, ölkəyə əsasən Avropa istehsalı olan texniki vasitələr gətirilmişdir. İdxal olunan texniki vasitələrin komplektləşdirilməsi imkanları nəzərdən keçirilir, yeni texnoloji mühitin formalaşmasının texniki təminatı yaradılır. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının icrasının üç ilində ölkəyə 240 min ton mineral gübrə və pestisid, 11 min kənd təsərrüfatı texnikası gətirilmişdir.

Azərbaycanın bir çox regionlarında heyvandarlıq sahələrində inkişaf, bitkiçilik sahələrinə nisbətən daha ciddi problemlərlə qarşılaşır. Həmin problemlər, keçmiş Sovetlər İttifaqında ölkəmizin əsasən bitkiçilik istiqamətində ixtisaslaşması, torpaq islahatından sonra heyvandarlığın inkişafı problemlərinin bir müddət ön plana çəkilməməsi və bu kimi bir sıra digər amillərlə

əlaqədardır. Buna baxmayaraq, 2014-2016-cı illər ərzində həyata keçirilmiş kompleks xarakterli, davamlı və geniş miqyaslı tədbirlər hesabına heyvandarlıq məhsulları istehsalında ciddi artım əldə edilmiş, bu artımda intensiv və hətta innovasiyalı-intensiv inkişaf amilinin rolu yüksəlmişdir. Təkcə 2016-cı illər ərzində əsas heyvandarlıq məhsulları üzrə idxalın həcmi, o cümlədən iribuynuzlu mal-qara üzrə 46 faiz, xırdabuynuzlu heyvanlar üzrə 5 faiz, quşçuluq üzrə 55 faiz, yumurta üzrə 27 faiz azalmışdır.

Ölkədaxili regionların əksəriyyətində tikinti materialları istehsalının inkişafı istiqamətində iqtisadi və institusional xarakterli sistemli tədbirlər davam etdirilmişdir. Regionlarda fəaliyyət göstərən sement zavodlarının sayı artır və bu sahədə idxaldan asılılıq tamamilə aradan qaldırılmışdır. Belə ki, həmin proqramın üçüncü ilində ölkə özünün əhəngə olan tələbatını 90%, armatura olan tələbatını 72%, mərmər-travertinə olan tələbatını 46 faiz ödəmək iqtidarında olmuşdur.

İndi isə regional inkişaf proqramlarının icrası nəticələrinin və regionların sosial-iqtisadi inkişafı üzrə III Dövlət Proqramının yerinə yetirilməsi şəraitinin, ölkədə davam edən makroiqtisadi sabitliklə qarşılıqlı əlaqələrinin dayanıqlığı dərəcəsinə təsiri məsələlərini nəzərdən keçirək. Hər şeydən əvvəl onu qeyd edək ki, regional iqtisadiyyatın dayanıqlığı bu mühiti yaradan amillərdən daha səmərəli istifadə olunmasını tələb edir. Məsələ ondadır ki, milli iqtisadiyyatın və ayrı-ayrı regionların iqtisadiyyatının dayanıqlı inkişafı imkanları həm daxili amillərin, həm də regionlararası əlaqələrin dayanıqlığını şərtləndirən amillərin təsiri altında formalaşır.

III regional inkişaf proqramının icrası mühitinin əsas parametrlərinin formalaşmasında innovasiya amilinin təsiri aşağıdakı formada artır: əvvəlki regional inkişaf proqramlarının, xüsusilə II regional inkişaf proqramının icrası dövründə intensiv inkişafı dəstəkləyən innovasiya infrastrukturunun yaradılması; proqram-məqsədli yanaşmanın reallaşdırılması üçün innovasiyalı-intensiv inkişafın regional xüsusiyyətləri nəzərə alınmaqla yaradılan şəraitin əsas parametrləri; innnovasiyalı-intensiv inkişaf tələbləri və mövcud infrastruktur təminatı arasında adekvatlığın təmin edilməsi məqsədilə infrastruktur şəbəkəsinin modernləşdirilməsi prioritetlərinin gerçəkləşdirilməsi; inkişafın yeni keyfiyyət səviyyəsinin əldə olunması.

Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası mühitinin təşəkkülündə regionlar arasında istehsal və kommersiya əlaqələrinin səmərəliliyinin yüksəldilməsi üçün nəzərdə tutulan tədbirlərin əsaslandırma dərəcəsi və indiyə qədər görülmüş işlərin uğuru nikbinlik üçün kifayət qədər əsas verir. Kənd ərazilərinin dayanıqlı inkişafı, regionlarda məşğulluq səviyyəsinin yüksəldilməsi

və məşğulluğun strukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilmiş tədbirlər barədə də analoji fikri söyləmək mümkündür.

2018-ci ilin yanvar ayının 29-da Heydər Əliyev mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda ölkə başçımız İlham Əliyev demişdir: "Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir".

Həmin konfransda səsləndirilən 2004-2017-ci illərə aid bir sıra nəticələrə diqqət yetirək:

- İqtisadiyyat 14 il ərzində 3,2 dəfə artmışdır. Bu, dünya miqyasında rekord göstəricidir. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır. Sənaye sahəsində 2,6 dəfə artım var, kənd təsərrüfatında 1,7 dəfə. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır.
- 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Bu gün isə bizim valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. On dörd il ərzində biz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq. Adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə, bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.
- On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə, Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır.
- On dörd il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu, çox gözəl göstəricidir. Bu, onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir.
- Görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Biz birinci proqramın icrasına başlayanda yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir.
- Maaşlar 14 il ərzində beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib.
- Sosial infrastrukturla bağlı böyük işlər görülmüşdür. 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur.
- 2004-2017-ci illərdə Azərbaycanın regionlarının inkişafına 67,5 milyard manat (77,8 mlrd. dollar) vəsait yönəldilib. 2017-ci ildə bu məqsədə 4,5 mlrd manat xərclənib. Bu vəsaitlər ölkənin regionlarında nəqliyyat, kom-

munal və sosial infrastrukturun yaradılmasına və müasirləşdirilməsinə sərf olunub.

**"Regional inkişaf proqramlarının investisiya təminatı və onun səmərəliliyi" adlı üçüncü fəsildə** Azərbaycanın Respublikasının investisiya potensialının və onun reallaşdırılmasının regional mühitinin səciyyəsi verilmiş, investisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional aspektləri araşdırılmış, regionların sosial-iqtisadi inkişafında investisiya potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanları qiymətləndirilmişdir.

İnvestisiya potensialı - ölkənin yeni müəssisələrinin və şəbəkələrinin, insan potensialının, istehsal və sosial infrastrukturun inkişafı strategiyasına əsasən, çoxssenarili variantların müqayisəsi, bir sıra digər üsullar və vasitələr əsasında müəyyənləşdirilmiş prioritet sahələrə yönəldilmiş investisiyaları; məhsul və proses innovasiyalarına, regional səviyyədə həmin innovasiyaların mənimsənilməsinə aid investisiyaları; ictimai maraqlara, sözün tam mənasında xidmət edən və bu səbəbdən dövlət sifarişinə yönəldilən resursları; məqsədli inkişaf proqramlarına investisiyaları; regionların sosial-iqtisadi inkişaf proqramlarının icrası çərçivəsində investisiyaları mənimsəmək qabiliyyətidir.

Milli və regional səviyyədə investisiya potensialından istifadə dərəcəsi, investisiya fəaliyyətinin əhatə dairəsinin və qismən səmərəliliyinin faktiki səviyyəsinin formalaşmasında az rol oynamır.

**Cədvəl 2**

**Azərbaycanda əsas kapitala yönəldilən investisiyalar və maliyyə mənbələri üzrə onların strukturu**

| | 2005 | 2010 | 2011 | 2013 | 2015 |
|---|---|---|---|---|---|
| Əsas kapitala investisiyalar, cəmi, mln.man | 5769,9 | 9905,7 | 12799,1 | 17850,8 | 15957,0 |
| Maliyyə mənbələri üzrə, cəmi, % | 100 | 100 | 100 | 100 | 100 |
| O cümlədən: müəssisə və təşkilatların öz vəsaitləri | 82,6 | 50,9 | 45,0 | 43,8 | 63,8 |
| Bank kreditləri | 6,4 | 6,5 | 6,3 | 4,8 | 9,3 |
| Büdcə vəsaitləri | 3,4 | 32,9 | 42,7 | 45,3 | 19,6 |
| Büdcədənkənar fondların vəsaitləri | 1,3 | 5,7 | 3,1 | 3,0 | 1,9 |
| Əhalinin şəxsi vəsaiti | 5,7 | 3,8 | 2,7 | 2,6 | 4,4 |
| Sair vəsaitlər | 0,6 | 0,2 | 0,2 | 0,5 | 1,0 |

Konkret regionun investisiya potensialından istifadə üzrə əsas xarakteristikalar, bu ərazidə və ona bitişik regionlarda geniş təkrar istehsal məlumatları nəzərə almalıdır. Azərbaycan regionlarına əsaslı vəsait qoyuluşunun məqsədəuyğunluğunu şərtləndirən amillər sırasında maddi istehsal və xidmət dairəsinin genişləndirilməsi, yeni fəaliyyət növlərinin mənimsənilməsi və mövcud maddi-texniki bazanın modernləşdirilməsi zərurəti qeyd edilməlidir. Azərbaycanda əsas kapitala yönəldilən investisiyaların həcmi inkişaf dinamikasına malikdir. Tədqiqat işində ölkənin investisiya potensialının və onun reallaşdırılmasının regional mühiti, regional inkişaf proqramlarının icrası dövrləri nəzərə alınmaqla xarakterizə edilmişdir.

Əsas kapitala yönəldilən investisiyaların maliyyə mənbələri üzrə strukturunda 2005-2015-ci illər üzrə ciddi tərəddüdlər müşahidə edilir. Belə ki, 2005-ci ildə əsas kapitala yönəldilən investisiyalarda müəssisə və təşkilatların payı 82,6% olmuşdursa, 2015-ci ildə bu göstərici 63,8% təşkil etmişdir. 2005-2015-ci illərdə ölkə üzrə əsas kapitala yönəldilən investisiyalarda büdcə vəsaitinin xüsusi çəkisi 3,4%-dən 19,6%-ə çatmışdır. Əsas kapitala yönəldilən investisiyaların strukturunda maşın, avadanlıq, alət və inventarların xüsusi çəkisi modernləşmənin xarakterini şərtləndirən mühüm göstəricilərdən hesab olunur (Şəkil 2).




**Şəkil 2. Azərbaycanda əsas kapitala yönəldilən investisiyaların strukturunda maşın, avadanlıq, alət və inventarların xüsusi çəkisinin dinamikası (%-lə)**

Təhlil edilən dövrdə, ölkə iqtisadiyyatında əsas kapitala yönəldilən investisiyaların strukturunda maşın, avadanlıq, alət və inventarların xüsusi çəkisinin ən yüksək səviyyəsi 2010-cu ilə təsadüf edir. Onu da qeyd edək ki, maşın, avadanlıq, alət və inventarların əsas kapitala yönəldilən investisiyaların strukturundakı xüsusi çəkisinin artması, gözlənildiyi kimi birmənalı olaraq modernləşmənin texnoloji innovasiya yönümlü olduğunu söyləməyə əsas vermir.

Qarşılıqlı təsir strategiyasının (hakimiyyət və investorlar arasında) reallaşdırılması üçün regional infrastrukturun inkişafına xidmət edən dövlət və özəl bölmənin tərəfdaşlığının inkişaf etdirilməsi, özünüidrəetmə strukturları tərəfindən, xüsusi maliyyə bazasının formalaşdırılması, özəl bölmənin nəzarət səhm paketinin əldə edilməsi və digər bu kimi tədbirlər həyata keçirilməlidir.

Milli iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilən investisiyaların artım sürəti bu və ya digər sahədə investisiyaya tələbatın ödənilməsi xarakterizə edən və ölkənin investisiya, ümumilikdə iqtisadi potensialının formalaşmasında həlledici rola malik göstəricidir. Əsas kapitala yönəldilən investisiyaların artım sürəti, başqa sözlə, əvvəlki ilə nisbətən artım, təhlil dövründə, ümumilikdə 15,1%-dən az olmamışdırsa, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə 2015-ci ildə bu sürət 11,1% olmuşdur (Şəkil 3).




**Şəkil 3. Sənaye, kənd və meşə təsərrüfatı, balıqçılıq və tikinti üzrə əsas kapitala yönəldilən investisiyaların əvvəlki ilə nisbətən artımı, faizlə**

Zənnimizcə, qeyd edilən dövrdə əsas kapitala yönəldilən investisiyaların həcmində və həmin dinamikanı xarakterizə edən nisbi göstəricilərdə baş verən tərəddüdlərin xarakteri, daha çox makroiqtisadi inkişaf imkanları ilə şərtlənmişdir. Azərbaycan Respublikasının sənayesində əsas kapitala yönəldilən investisiyaların artım sürətinin ən yüksək həddi 2010-cü ildə (25,3%), ən aşağı həddi isə 2005-ci ildə (6,6%) olmuşdur.

Azərbaycanın investisiya potensialının reallaşdırılmasının regional mühitini xarakterizə edərkən nisbi və mütləq üstünlüklər nəzərə alınmalıdır. Regionun mütləq üstünlükləri, onun coğrafi, demoqrafik (xüsusilə, əmək resursları), təbii sərvətləri və iqlim şəraiti ilə müəyyənləşir. Nisbi üstünlüklər, maliyyə, ilk növbədə investisiya potensialı ilə şərtlənir. Həmin üstünlüklər xərclərin azaldılmasında və ya istehsalın nəticəsinin (hazır məhsulun çeşidinin) genişlənməsi ilə bazara çıxışın asanlaşmasında ifadə oluna bilər. Regionların mütləq və nisbi üstünlüklərinin reallaşdırılması, qeyd olunan və digər imkanları gerçəkləşdirməklə, nəticə etibarı ilə milli miqyasda dayanıqlı inkişafa xidmət etməlidir.

Regionun investisiya potensialını səciyyələndirmək məqsədilə təcrübədə daha çox istifadə olunan metodikalara görə aşağıdakı göstəricilər təhlilə daxil edilməlidir: ölkənin ümumi daxili məhsulunda regionun payı; ölkənin əsas fondlarında regionun xüsusi çəkisi; regionda adambaşına əsas fondlar, regionda adambaşına əsas kapitala yönəldilən investisiyaların məbləği; bir manat əsas kapitala düşən, əsas fondlar və bir sıra digər göstəricilər.

Regional fərqləri, inkişafın bütün əsas komponentlərində müsbət dinamika şəraitində, minimuma endirmək dövlətin iqtisadi siyasətinin prioriteti olduqda məcmu sosial-iqtisadi səmərəliliyin qiymətləndirilməsində regional inkişafın tarazlığı (iqtisadi mərkəzəqaçma proseslərinin tənzimlənməsi) meyarı önə çəkilməlidir. İnvestisiya siyasətində ölkədaxili regionlar arasındakı fərqləri azaltmaq istiqamətində görülən tədbirlər, iqtisadi məqsədəuyğunluq və sosial rifahın yüksəldilməsi meyarları üzrə, tarazlı inkişafın konseptual tələbləri və strateji hədəfləri nəzərə alınmaqla işlənib hazırlanmalı və həyata keçirilməlidir.

Tarazlı regional inkişaf investisiyaya tələbatın müəyyənləşdirilməsindən tutmuş, müvafiq potensialdan istifadənin səmərəliliyinin qiymətləndirilməsinə qədər bütün mərhələlərdə özünəməxsus tələblər qoyur. Bu tələblərin böyük əksəriyyəti struktur investisiya siyasətində nəzərə alınır. Tarazlıq və inkişaf anlayışlarına, onların alternativliyini iddia edənlərin mövqeyindən deyil, həmin anlayışların bir-birini tamamlaması aspektində yanaşma, zənnimizcə, daha məqsədəuyğun hesab edilməlidir. Məsələ ondadır ki, müasir anlamda regionların inkişafındakı tarazlıq, inkişafın temp və miqyasını yuxarıdan məhdudlaşdırmağı nəzərdə tutmur.

Dayanıqlı və tarazlı regional iqtisadiyyatın investisiyalaşdırılması tədbirlərinin prioritetləşdirilməsində ekoloji amilin rolu get-gedə artır. Ekoloji iqtisadiyyatın artım iqtisadiyyatından yaşıl iqtisadiyyata keçid mərhələsi kimi qəbul edilməsi, investisiya proseslərinin ekoloji-iqtisadi tənzimlənməsinin fəallaşdırılması zərurətini ortaya qoyur. Tarazlı regional siyasətin prioritetləri, qabaqcıl xarici təcrübədən göründüyü kimi elmi-texniki potensialın reallaşdırılması mühitinin formalaşmasının tempi və miqyasına ciddi təsir edə bilir. Belə ki, həmin prioritetlərin innovasiyalı tarazlı inkişafa, onun investisiyalaşmasının, ümumilikdə investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə, bu və ya digər regionun investisiya cəlbediciliyini nəzərə alan mexanizmin formalaşdırılmasına xidmət etməsi texnoloji, ekoloji və digər xarakterli yeniliklərin reallaşdırılmasında məqsədli investisiya proqramlarının yeri və rolunu müəyyənləşdirməyə imkan verir.

Tarazlı regional inkişaf üzrə məqsədli proqramların birgə maliyyələşdirilməsi, özəl bölmə və yerli özünüidarəetmə orqanları arasında qarşılıqlı fəaliyyətdə öhdəliklərin bölüşdürülməsinin optimal rejiminin təmin edilməsi investisya potensialından istifadənin iqtisadi və institusional səmərəliliyinin yüksəldilməsi imkanlarını nəzərə çarpacaq dərəcədə genişləndirir. Həmin imkanlar, hər şeydən əvvəl: resursqoruyucu və bərpa olunan enerji mənbələrindən istifadəni nəzərdə tutan texnologiyaların geniş tətbiqində; ölkənin ümumi və ayrı-ayrı iqtisadi rayonlarının investisiya cəlbediciliyinin yüksəldilməsində; investisiya proseslərinin şəffaflığının artırılmasında; dayanıqlı inkişafın innovativliyində öz ifadəsini tapır.

İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi məqsədəuyğunluğunun qiymətləndirilməsi, ilk növbədə iqtisadi səmərəliliyi nəzərə alan regional investisiya siyasətinin prioritetlərinin hərtərəfli əsaslandırılması, o cümlədən iqtisadi-ekoloji səmərəliliyi qiymətləndirməyə imkan verən göstəricilər sisteminin müəyyənləşdirilməsini tələb edir. Haqqında danışılan göstəricilər iqtisadi mərkəzəqaçma amilinin tarazlı regional inkişafa mənfi təsirinin neytrallaşdırılması imkanlarını və onların gerçəkləşdirilməsi yollarını müəyyənləşdirməyə xidmət etməlidir.

Regionların tarazlı inkişafı siyasətinin reallaşdırılmasının institusional təminatı investisiya potensialından istifadə prioritetlərinin həyata keçirilməsi mühitinə ilkin tələblər qoyur. Həmin tələblərə aşağıdakılar aid edilməlidir: dövlət satınalmaları üzrə mükəmməl institusional strukturun yaradılması; institusional dekompozisiya prosesinin dönərli olması; idarəetmə strukturunun dayanıqlı inkişafa adekvatlığı; institusional şəbəkənin fəaliyyətinin tənzimlənməsində regional iqtisadi mərkəzlərin rolunun daha da konkretləşdirilməsi; investisiya potensialının tarazlı regional inkişaf tələblərinə cavab verən, o cümlədən, dinamik müvazinətin nisbi davamlılığını təmin edən institusional

strukturun formalaşdırılması; institusional təminatın formalaşmasında texniki-texnoloji sistemlərin modernləşdirilməsinin investisiya prioritetlərinin əsaslandırılması; regional inkişafda tarazlıq, idarəetmədə ahəngdarlıq və operativlik tələblərinə cavab verən institusional strukturun mövcudluğu.

Regionların dayanıqlı sosial-iqtisadi inkişafında investisiya potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanlarını məhdudlaşdıran institusional amillərə aşağıdakılar aid edilməlidir: infrastrukturunun modernləşmə tempinin yüksəldiyi hazırkı dövrdə, işgüzar fəallığın innovasiyalı-intensiv inkişafın əsas tələblərinə cavab verən institusional təminatının təşəkkül mərhələsində olması; regionda kifayət qədər oxşar institusional-texnoloji mühitdə fəaliyyət göstərən eyni və oxşar profilli müəssisələrin, şaquli inteqrasiya əlaqələrinin üstünlüyü şəraitində şəbəkə əmələ gətirməməsi; regionun müxtəlif profilli istehsal, emal və xidmət müəssisələri arasında bir sıra institusional-təsərrüfat əlaqələrinin, dayanıqlı inkişafın əsas tələblərinə cavab verməməsi.

İnvestisiya qərarları qəbul edilərkən investisiya cəlbediciliyinin, sahibkarlıq potensialından istifadənin və regionda işgüzar fəallıq səviyyələrinin qarşılıqlı asılılıqların kəmiyyət və kəmiyyətcə qiymətləndirilməsi məqsədəuyğundur. Gəlirlərin investisiya resurslarının miqdarına nisbətinin, regionların sosial-iqtisadi inkişafında investisiya potensialından istifadə səmərəliliyinin qiymətləndirilməsi baxımından mühüm informasiya mənbəyidir.

Regionların sosial-iqtisadi inkişafında investisiya potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanları, həlledici dərəcədə regional siyasətdə insan amilinə münasibətin xarakteri ilə şərtlənir. Bu və digər məqamları nəzərə almaqla investisiya potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi imkanlarının reallığı qiymətləndirilməlidir. Haqqında danışılan imkanların kəmiyyətcə qiymətləndirilməsində yol verilən dəqiqlik investisiya potensialının formalaşması və istifadəsi prosesinin kəmiyyət xarakteristikalarının dəqiqliyindən, bilavasitə asılıdır.

İnvestisiyanın planlaşdırılması mərhələsində, regional səviyyədə səmərəliliyin təminatı üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: investisiyanın növ, texnoloji və digər aspektlərdə, bir sözlə ümumilikdə təkrar istehsal baxımından strukturunun təkmilləşdirilməsi; texnoloji prosesin qarşılıqlı əlaqəli mərhələlərində investisiyalaşdırmaya kompleks yanaşmanın təmin edilməsi. Bu halda əsas iqtisadi-texnoloji proseslər modernləşdirilmə müstəvisində yenidən nəzərdən keçirilməli, əlaqələrin gözlənilən multiplikasiya effektindəki rolu qiymətləndirilməlidir; əsas və köməkçi istehsala, sosial sahəyə və ekoloji problemlərin həllinə eyni vaxtda vəsait ayrılması; layihələndirmənin müddətinin azaldılması və layihənin keyfiyyətinin yüksəldilməsi.

Regional səviyyədə investisiya potensialından istifadənin səmərəliliyinin yüksəldilməsi üçün investisiyalaşdırmaya texnoloji prosesin bütün mərhələlərində kompleks yanaşmaqla, onun təkrar istehsal baxımından strukturu təkmilləşdirilməli; əsas və köməkçi istehsalın modernləşdirilməsi, habelə sosial və ekoloji problemlərin kompleks həlli tələblərini nəzərə alan layihələrin səmərəliliyinin qiymətləndirilməsində çoxmeyarlı yanaşma və çoxsaylı ssenari formalaşdırmağa imkan verən imitasiya eksperimentlərindən istifadə edilməlidir. Qeyd olunan məqsədlə, habelə investisiya layihəsinin keyfiyyətinin idarə olunması üzrə müntəzəm yenilənən, innovasiyalı-intensiv inkişaf tələblərinə cavab verən informasiya bazası yaradılmalı, əsas fondların aktiv hissəsinin yenilənməsi prosesində innovasiyalı inkişafın tələblərinə adekvat amortizasiya siyasəti həyata keçirilməli, istehsal və xidmət subyektləri arasında fəaliyyətin ərazi təşkili baxımından qiymət əmələgəlmə prosesinin tənzimlənməsinin mükəmməl sistemi qurulmalı, ortaq potensiallı regionlarda resurs təminatını yaxşılaşdırılmalı, daşımalar sxemi yerdəyişmələrin minimumlaşdırılması meyarı üzrə təkmilləşdirilməlidir.

**“Regional istehsal və resurs potensialının inkişafında bankların yeri və rolu” adlı dördüncü fəsildə** bankların fəaliyyət mühiti və regional şəbəkənin təşəkkülünü şərtləndirən amillər səciyyələndirilmiş, tarazlı regional inkişaf və dayanıqlı bank fəaliyyətinin birgə tənzimləmə sisteminin formalaşmasının metodiki və informasiya aspektləri tədqiq edilmiş, regional istehsal və resurs potensialından istifadənin prioritetlərinin reallaşdırılmasında bankların rolu qiymətləndirilmişdir.

2015-ci ilin ortalarından başlayaraq ölkədə fəaliyyət göstərən bankların konsolidasiyası prosesi sürətlənmiş, bankların sayında azalma müşahidə edilmişdir. 2017-ci ilin fevral ayının əvvəlinə olan məlumata görə 30 bank fəal surətdə öz funksiyalarını icra edir. 2017-ci ilin əvvəlindən başlayaraq bankların konsolidasiyası və bəzi kommersiya banklarının lisenziyasının geri çağırılması prosesi davam edir. Azərbaycanda 2003-cü ildən başlayaraq həyata keçirilən regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramları ölkə ərazilərin sosial-iqtisadi inkişafının dayanıqlığı və tarazlığını təmin etməkdə bankların rolunu artırmışdır. Belə ki, həmin proqramlar bankların, bilavasitə işgüzar adamlara yaxınlaşdırmaqla, onlar üçün əlverişli fəaliyyət mühitinin təşəkkülündə ciddi rol oynamış və oynamaqdadır. Belə ki, ölkədə hazırda mövcud olan kommersiya banklarının, demək olar ki, əksəriyyətinin filialları vardır. 2016-cı ilin sonuna olan məlumata görə ölkədə fəaliyyət göstərən bankların paytaxtda və regionlarda filialların sayı, demək olar ki dəyişməz qalmışdır. Məlumat üçün bildirək ki, 2014-2015-ci illərdə həmin filialların sayında artım müşahidə olunmuşdu.

Bankların səmərəli fəaliyyəti marketinq mühitinin xarakteristikası ilə bilavasitə bağlıdır. Məlum olduğu kimi marketinq mühiti konkret halda bankların ayrı-ayrılıqda bilavasitə nəzarətində olmayan mühitdir. Azərbaycanda fəaliyyət göstərən bankların marketinq planları hazırlanarkən nəzərə alınan kənar amillərin sayı, xarakteri, vaciblik dərəcəsinə görə sırası və bu kimi bir sıra məsələlərin həlli ilkin mərhələdə olsa da, müəyyən irəliləyişlər, o cümlədən qabaqcıl təcrübədən yararlanmaqla müştərilərlə uğurlu əməkdaşlıq faktları mövcuddur. Artıq həmin banklar neftin qiymətindəki tərəddüdlərlə əlaqədar real problemlərin həllində müəyyən təcrübəyə malikdirlər. Bununla belə, marketinq üzrə xarici informasiya bazasının formalaşmasında ciddi problemlər qalmaqdadır.

Aparılmış araşdırmalar regionlarda bankların fəaliyyət mühitinə neqativ təsir edən amillərə, ilk növbədə bank xidmətlərinin rəqabət qabiliyyətinin azalmasını, tərəfdaşların seçimində subyektivliyə yol verilməsini, kommersiya banklarının informasiya təhlükəsizliyinin pozulmasını, marketinqdə çatışmazlıqlar və maliyyə resurslarının düzgün idarə edilməməsini göstərmişdir. Regionlarda bankların fəaliyyət mühitinin təhlili aşağıdakı mərhələlərlə həyata keçirilməlidir: məlumat bazasının yaradılması və onların dinamik təhlili üçün əyani surətdə təqdim edilməsi; nəticə və amil əlamətinin orta qiymətinin hesablanması və digər üsullarla kənarlaşmaların müəyyən edilməsi; bankların dayanıqlı inkişafını şərtləndirən amillərin təsirinin müxtəlif aspektlərdə qiymətləndirilməsi; regionda bank fəaliyyətinin idarə edilməsinin prioritet istiqamətlərinin və trayektoriyalarının müəyyənləşdirilməsi üçün aralıq göstəricilərin detallaşdırılması; banklara rəqabət üstünlüyü verən resurs təminatını, mənfəət əldə edilməsi imkanlarının optimallaşdırılmasının məqsəd funksiyalarının əsaslandırılması və i.a.

Azərbaycanda regionların inkişafının maliyyə-kredit təminatının səmərəliliyi həlledici dərəcədə regional istehsal və resurs potensialının inkişafında bankların yeri və rolunun düzgün qiymətləndirilməsindən, bankların regional şəbəkəsinin təşəkkülünü şərtləndirən amillərin reallığa, başqa sözlə icra edilən regional inkişaf proqramının yaratdığı mühitin tələblərinə adekvat xarakteristikalarından, regional inkişafın dayanıqlığından və bank fəaliyyətinin tənzimlənməsi sisteminin mükəmməlliyindən asılıdır.

Dayanıqlı inkişaf tələblərinə əməl edilməsi üçün regionun resurs və istehsal potensialından istifadə mühitinin əsas elementləri sırasına, ilk növbədə normativ-hüquqi baza və onun təkmilləşdirilməsinin tempi, miqyası, texnoloji təminat səviyyəsi, o cümlədən, bank texnologiyalarının yenilənməsi, formalaşmış və müasir reallıqlara adekvat reaksiya vermək iqtidarında olan tənzimləmə və nəzarət sisteminin mövcudluğu, dayanıqlı fəaliyyət və inkişaf mexanizminin formalaşması aid edilməlidir.

Banklarının dayanıqlığı və onların vəsaitlərinin likvidliyi arasında funksional əlaqə vardır. Bu əlaqə, həlledici dərəcədə bankların fəaliyyət mexanizminin çevikliyi və ümumiyyətlə işləkliyi ilə şərtlənir. Doğrudan da, bankların kafi likvidlik səviyyəsinə malik olması, onun öz funksiyalarını yerinə yetirmək imkanlarını genişləndirməklə, bank fəaliyyətinin, o cümlədən region daxilində onun səmərəliliyinin yüksəldilməsinə xidmət edir.

Araşdırmalar göstərir ki, bank sisteminin regional istehsal və resurs potensialından səmərəli istifadə tələblərinə uyğunlaşdırılması üçün dayanıqlı bank şəbəkəsinin aparıcı rol oynadığı mütərəqqi bazar infrastruktur şəbəkəsi formalaşdırılmalı, istehsal gücləri və xammal potensialı haqqında məzmunu daim yenilənə bilən, ən mütərəqqi təminat alt sistemlərinə malik informasiya şəbəkəsinin qurulması, maliyyə islahatlarının mükəmməl institusional bazasının yaradılması və müvafiq sistemdə təkmilləşdirmələrin kompleksliyini xarakterizə edən bir sıra digər istiqamətlər prioritet hesab olunmalıdır.

Bankların fəaliyyəti maliyyə resurslarının transformasiyası ilə bilavasitə əlaqədar olduğundan, milli və regional səviyyədə iqtisadi agentlər arasında istehsal, xidmət və digər münasibətlərinin xarakterinə ciddi təsir edir. Kredit bazarında geniş fəaliyyət imkanları, bank sisteminə regionda istehsal və resurs potensialından istifadə şəraitinə və iqtisadi fəallığa ciddi təsir etməyə imkan verir. Digər tərəfdən, bankların regional şəbəkəsinin genişlənməsi maliyyə xidmətlərinin əlyetənliyi vəziyyəti yaxşılaşdırıldığından, konkret ərazidə iqtisadi idarəetmənin səmərəliliyi yüksəlir.

Bankların regional iqtisadiyyatın bu və ya digər sahəsinin inkişafına marağını dəstəkləmək üçün kreditləşmənin normativ-hüquqi bazası, girov mexanizmi, istehsalın, o cümlədən ixracyönümlü istehsalın stimullaşdırılması mexanizmi, təbii inhisarçıların tarifləri, dövlətin sahəyə himayəsi tədbirlərinin yaratdığı mühitin üstünlüklərindən yararlanmaqla yenidən nəzərdən keçirilməlidir.

Bankların maliyyə resurslarının səfərbər edilməsində və istifadəsində rolu regional şəbəkənin imkanlarından, həmin imkanların gerçəkləşdirilməsi isə regionun potensialının aşağıdakı xarakteristikaların diqqət mərkəzində olmasından asılıdır: ərazidə fəaliyyət göstərən müəssisələrdə istehsal güclərinin mütəmadi yüklənməsi səviyyəsi və həmin səviyyənin əldə olunmasında yerli xammaldan istifadənin rolu; ortaq potensiallı ölkədaxili regionlarda müxtəlif istiqamətli investisiya fəaliyyətinin koordinasiyası səviyyəsi; maliyyə vasitəçiliyi infrastrukturunun, regional istehsal və resurs potensialına adekvatlığı; bankların regionda iqtisadi mühitə nüfuzu və işgüzar fəallıq mühitinə təsiri imkanları; innovasiyaların mənimsənilməsi və transferi baxımından regionun fəallığı dərəcəsi.

Bankların bu və ya digər regionda fəaliyyəti, onun investisiya cəlbediciliyi, habelə investisiyaya olan tələbatı ilə bilavasitə əlaqədardır. Regional səviyyədə investisiya fəallığını yüksəldilməsi üçün investisiya fəaliyyətinin tənzimlənməsi zamanı aşağıdakı tələblərə əməl edilməlidir: regional inkişafın çoxvariantlı ssenarilərinin tərtib edilməsini nəzərdə tutan investisiya konsepsiyasının işlənib hazırlanmasının zəruriliyi, regionda investisiya fəaliyyətinin kifayət qədər detallaşdırılmış göstəricilər üzrə monitorinqi və təhlili, inkişafın ərazi və sahə prioritetlərini nəzərə alan investisiya siyasətinin işlənib hazırlanması.

Tarazlı və dayanıqlı inkişaf çoxvariantlı ssenarilərin imitasiyasını, sonuncu isə reprezentativliyin və informativliyin məqbul səviyyəsinin əldə olunmasını tələb edir. Nəzərə almaq lazımdır ki, tarazlı regional inkişaf və dayanıqlı bank fəaliyyətinin birgə tənzimlənməsi çoxsaylı variantlar arasında seçimi nəzərdə tutmalıdır. Çoxvariantlı regional inkişaf ssenarilərini müqayisəli qiymətləndirmək məqsədi ilə digər metod və vasitələrlə yanaşı imitasiya modelləşdirməsinin metodiki təminatından istifadə üzrə geniş imkanların olduğu qeyd edilməlidir.

Çoxmeyarlı yanaşma sayəsində, regional iqtisadiyyatın tənzimlənməsi prioritetlərinin reallaşdırılması transaksion məsrəfləri, bütün əsas mərhələlərdə, əhəmiyyətli dərəcədə aşağı salmağa, o cümlədən yalnız hüquqi müstəviyə çıxarılmaqla həll edilə bilən məsələlərin sayını azaltmağa, dəyər zəncirində səmərəliliyin artırılmasının yeni imkanlarını aşkara çıxarmağa, sahələrarası və fəaliyyət inteqrasiyasının üstünlüklərini gerçəkləşdirməyə imkan verir.

Regional siyasətin həyata keçirilməsində bank sisteminin fəaliyyətinin koordinasiyasında Mərkəzi Bankın rolu, antiböhranın idarəetməsində özünü daha əyani şəkildə büruzə verir. Bu rol, ilk növbədə dünya iqtisadi böhranın milli iqtisadiyyata təsirlərinin azaldılmasında ifadə olunur. Azərbaycanda yerinə yetirilən tənzimləmə siyasəti bu baxımdan inflyasiyanı cilovlamış və kifayət qədər uzun bir müddətdə, davamlı olaraq onun aşağı səviyyəsini təmin etmiş, geniş çeşidli idxal mallarının, dünya təsərrüfat sistemində və xarici bazarda baş verən neqativ proseslərə rəğmən bahalaşmasını, əhəmiyyətli dərəcədə ləngitmiş, xarici valyutalarla kreditləşmə üzrə borc yükünü optimallaşdırmağa, o cümlədən borcların strukturunu təkmilləşdirməyə imkan yaratmışdır.

Azərbaycan Respublikası regionlarının inkişafının maliyyə-kredit təminatının səmərəliliyinin yüksəldilməsində tarazlı regional inkişaf və dayanıqlı bank fəaliyyətinin birgə tənzimlənməsi, ilk növbədə aşağıdakı imkanları şərtləndirir: ortaq potensiallı ölkədaxili regionların resurs və istehsal potensialının formalaşdırılmasının sürətləndirilməsi, həmin potensialların istifadə-

si prosesində allokasiya effektinin reallaşdırılması; ekoloji cəhətdən fəaliyyəti reqlamentləşdirilmiş təsərrüfatların rəqabət qabiliyyətinin yüksəldilməsi üçün yaşıl iqtisadiyyat atributlarından istifadəyə əlverişli şəraitin yaranması; region səviyyəsində korporativ idarəetmənin iqtisadi, institusional, sosial-mənəvi mühitinin yaxşılaşdırılması üçün mühit yaradan amillərin fəallaşması; çevik mənbələrdən formalaşan maliyyə resurslarının idarə edilməsində manevr imkanlarının genişlənməsi; bankların borclarını ödəmək qabiliyyətinin güclənməsi; bank məhsullarının çeşidinin artırılması və bank xidmətlərinin rəqabət qabiliyyətinin artırılması və i.a.

**"Regional inkişaf proqramlarının maliyyə-kredit və investisiya təminatı sisteminin təkmilləşdirilməsi" adlı beşinci fəsildə** regional sosial-iqtisadi inkişaf proqramlarının maliyyə-kredit təminatının səmərəliliyinin yüksəldilməsi istiqamətləri müəyyən edilmiş, regionlarda iqtisadiyyatın çoxşaxəli və innovasiya yönümlü inkişafına adekvat investisiya siyasətinin prioritetləri və onların reallaşdırılması əsaslandırılmış, regionlarda sosial-iqtisadi inkişafın multiplikasiya effekti və milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətləri müəyyən olunmuşdur.

İnnovasiyalı istehsal fəaliyyətinin regional xüsusiyyətləri, bir tərəfdən yerli imkanların reallaşdırılması səviyyəsi ilə şərtlənirsə, digər tərəfdən, onlar maliyyə - kredit sisteminin qarşısına qoyulan vəzifələrin icrası mühiti ilə bağlıdır. Araşdırmalardan göründüyü kimi, həmin mühitin dinamizmi, son illər bir qədər yüksəlmişdir. Belə ki, regionların sosial-iqtisadi inkişafı üzrə sistemli və davamlı surətdə reallaşdırılan dövlət proqramlarının icrası dövründə müxtəlif maliyyə mənbələrindən, habelə dövlət büdcəsi vəsaitləri hesabına yaradılan istehsal güclərindən istifadə prosesində Azərbaycan Respublikasında dövlət-özəl bölmə əməkdaşlığı istiqamətində müəyyən təcrübə əldə edilmişdir. Əlbəttə, həmin təcrübə, qabaqcıl xarici təcrübə və mövcud reallığın tələbləri ilə müqayisəli şəkildə təhlil edilməli, müşahidə edilən meyillərin davamlı olub-olmayacağı əsas xarakteristikalar üzrə qiymətləndirilməlidir.

Milli iqtisadiyyatın bu və ya digər xüsusiyyətinin regional səviyyədə təzahür etməsi, konkret regionda klasterial inkişaf imkanlarının reallığından xəbər verir. Klasterial inkişaf imkanlarının real olduğu konkret region, klasterin nüvəsi rolunda nəzərdən keçirildikdə, ən mühüm əlaqələrin imitasiyası sayəsində, regional iqtisadiyyatın ayrı-ayrı sahələri gəlirlik səviyyəsinə görə ranqlaşdırılmalı, daha sonra isə, ən aşağı səviyyədən başlayaraq sahənin sosial əhəmiyyəti qiymətləndirilməlidir. Gəlirlik səviyyəsinə görə ən aşağı pillədə durmuş sahədən başlayaraq sosial əhəmiyyətinə görə düzülən sahələrin sıra sayı, əmsal kimi qəbul edilə bilər. Sonda gəlirlik səviyyəsinə görə sıra nömrələri, sosial əhəmiyyətinə görə düzülən sahələrin sıra sayına (haqqında danışılan əmsala) vurulmaqla, əldə edilən kəmiyyətlər ekspert qiymətləndir-

mələrində istifadə olunur. Haqqında danışılan kəmiyyətlərdən istifadə üzrə fərqli alqoritmlər tövsiyə edilir. Zənnimizcə, həmin alqoritmlərdən daha diqqətə layiq olanı, haqqında danışılan kəmiyyətləri regionun profilini təşkil edən sahələrin sayına bölməklə qruplar təşkil etmək; qrupdaxili sıralamada iki meyardan, yəni region iqtisadiyyatının inkişafının iqtisadi və sosial nəticələrinin maksimumlaşdırılması meyarlarından istifadə etmək; hər bir qrup üzrə göstəriciləri ekspert qaydada qiymətləndirməklə dövlət investisiyalarından istifadə imkanları nəzərdən keçirilməsini nəzərdə tutan alqoritmdir. Şərh edilən yanaşma, təhlil və proqnozlaşdırmanın tərkib hissəsi kimi, onun ümumi kontekstinə uyğun olmalıdır.

Maliyyə sisteminin təkmilləşdirilməsinin istiqamətlərinə - sosial yönümün qiymətləndirilməsi meyarlarının əsaslandırılması və maliyyə sisteminin sosial yönümlüyünün optimal səviyyəsinin müəyyən edilməsinə çoxmeyarlı yanaşmaların reallaşdırılması, özəl və dövlət maliyyə institutlarının fəaliyyətinə dövlət müdaxiləsinin optimal həddinin və ona nail olunması üsullarının müəyyən edilməsi, həmin müdaxilələrin bütün əsas xarakteristikalar baxımından şəffaflığının artırılması aid edilməlidir. Haqqında danışılan sistemin təkmilləşdirilməsi, habelə maliyyə bazarlarındakı bütün əsas əməliyyatlar üzərində ciddi nəzarətin təşkilini, kapitalın xaricə axınının, arzuolunmaz temp və miqyasının qarşısının alınmasını, mərkəzi bankın səlahiyyətlərinin, o cümlədən kommersiya banklarının üzərində, onların sosial məsuliyyətini reallaşdıran nəzarət proseslərinin çoxmeyarlı yanaşmalar əsasında (çoxssenarili imitasiya, ekspert texnologiyalarının tətbiqi və s.) optimallaşdırılmasını, regionlarda orta və uzunmüddətli investisiya layihələrinin maliyyələşdirilməsi mənbələrindən istifadə prosesində allokasiya effektinə, kifayət qədər yaxın effektin əldə edilməsini nəzərdə tutmalıdır.

Fəaliyyətdə olan maliyyə-kredit sistemini formalaşdıran komponentlərin və onlar arasında qarşılıqlı əlaqələrin innovasiyalı-intensiv inkişafa adekvatlığının təmin edilməsi, tarazlı regional inkişaf meyarları üzrə müxtəlif maliyyə mənbələrinin vəsaitlərindən optimal nisbətdə istifadənin təmin edilməsi, regionlarda innovasiyalı-intensiv inkişafa adekvat institusional strukturun formalaşdırılması, regionların sosial-iqtisadi innovasiyalı inkişafı baxımından əsas kapitala yönəldilən investisiyaların texnoloji və təkrar istehsal strukturunun optmallaşdırılması, regional inkişafın dəstəklənməsi baxımından, maliyyə lizinqindən istifadə dairəsinin genişləndirilməsi - regional sosial-iqtisadi inkişaf proqramlarının maliyyə-kredit təminatının səmərəliliyinin yüksəldilməsinin prioritet istiqamətləri hesab edilməlidir.

Regional iqtisadi tədqiqatlar, əsas etibarı ilə tətbiqi xarakterlidir. Belə ki, milli çərçivədə iqtisadiyyatın təhlili və proqnozlaşdırılması prosesində pozitiv və normativ yanaşmalardan birgə istifadə nəzərdə tutulduğu halda, bir

çox mənbələrdə regional iqtisadiyyatda normativ xarakterli araşdırmalara üstünlük verilməsinin məqsədəuyğunluğu əsaslandırılır. Arayış üçün bildirək ki, tədqiqatların pozitiv və normativ kimi fərqləndirilməsi, hətta elmi araşdırmaların bu qruplarının adlandırılması belə, xeyli dərəcədə şərtidir. Pozitiv iqtisadi tədqiqatlar, iqtisadi prosesləri, habelə baş verən hadisələri şərtləndirən amillərin təsirinin xarakteri, istiqamətləri, onların mühit yaratma qabiliyyəti və s. kimi, proses və hadisələri obyektiv surətdə səciyyələndirməyi nəzərdə tutur. Normativ xarakterli iqtisadi tədqiqatlar isə, iqtisadi proses və hadisələrin necə inkişaf edəcəyini müəyyənləşdirməyi nəzərdə tutur. Əlavə olaraq onu da bildirək ki, tədqiqatların, o cümlədən iqtisadi tədqiqatların pozitiv və normativ kimi fərqləndirilməsi konsepsiyası, iqtisadi araşdırmaların, proqnozlaşdırma proseslərindən süni surətdə təcrid edilməsini qəbul etmir. Əlbəttə, regional iqtisadiyyat təkcə təcrübəyə əsaslanmaqla təhlil edilib, proqnozlaşdırıla və səmərəli idarə edilə bilməz.

Regional səviyyədə istehsalın şaxələndirilməsi zərurətini şərtləndirən çoxsaylı və müxtəlif xarakterli amillərin formalaşdırdığı iqtisadi, maliyyə, texniki-texnoloji və sosial mühit, kifayət qədər geniş spektrli komponentləri əhatə edən motivlərlə fəallaşdırılmalıdır. Məqsəd isə bu və ya digər regionda fəaliyyət göstərən müəssisələrin, birbaşa və ya dolayı surətdə istehsalla əlaqədar risklərinin azaldılması və əldə edilən mənfəətin artırılması hesabına, onların rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinin, istehsal və maliyyə dayanıqlığının təmin edilməsidir.

| İlkin şərtlər | Motivlər | Məqsədlər |
|---|---|---|
| İnnovasiyalı fəaliyyət imkanlarının artması | İqtisadi, maliyyə | Rəqabətqabiliyyətinin yüksəldilməsi |
| Regionların və fəaliyyət istiqamətlərinin inkişafındakı qeyri -bərabərlik | Texniki-texnoloji | Risklərin azaldılması, mənfəətin artırılması |
| Birprofilli (ənənəvi) istehsalın mənfəət normasının azalması meyli | Sosial | İstehsal və maliyyə dayanıqlığı |

**Şəkil 4. Regional səviyyədə istehsalın şaxələndirilməsini şərtləndirən amillər, motivlər və məqsədlər**

Regionlarda innovasiyalı-intensiv inkişafa adekvat investisiya siyasətinin prioritetləri əsaslandırılarkən investisiya resurslarının səfərbər edilməsi və artırılması imkanları, onların gerçəkləşdirilməsi vəziyyəti, o cümlədən sərbəst maliyyə vəsaitlərinin investisiyaya transformasiyası prosesinin xarakteristikaları, regional səviyyədə investisiya fəallığının səviyyəsi və onun

yüksəldilməsi mühiti, regionlarda innovasiyalı-intensiv inkişafın institusional təminatın təşəkkülü vəziyyəti, investisiya resursları bazarının təşəkkülü səviyyəsi və həmin bazarın inkişafında dövlətin oynadığı rol, özəl investisiyaların təşviqi vəziyyəti, innovasiya təyinatlı resurslardan istifadə imkanları qiymətləndirilməlidir. Bu imkanlar qiymətləndirildikdən sonra resursların çoxtəyinatlı istifadə variantları müqayisə edilməli, innovasiyalı fəaliyyətin üstünlük təşkil etdiyi istehsal sahələrinin xarakteristikaları və həmin fəaliyyətlərin genişləndirilməsi imkanları, əsas istehsal fondlarının yenilənməsinin və istehsalın yenidən strukturlaşdırılmasının tempi və miqyası, amortizasiya siyasətinin xarakteristikaları və bu kimi bir sıra digər göstəricilər nəzərə alınmalıdır.

Regional innovasiya potensialından daha səmərəli istifadəni nəzərdə tutan innovasiya siyasətinin prioritetləri regional inkişafın dayanıqlığının təmin olunmasına xidmət edir. Həmin prioritetlərə aşağıdakılar aid edilməlidir: istehsalın (xammal, yarımfabrikat və i.a. təchizatının), risklərin və kapital axınlarının şaxələndirilməsi, resursqoruyucu və bərpa olunan alternativ enerji mənbələrindən istifadəni nəzərdə tutan, müxtəlif xarakteristikalı mütərəqqi texnologiyaların tətbiqi, özəl bölmədə bazarın müxtəlif seqmentlərində mövqe qazanmağa yönəlmiş işgüzar fəallığın və özəl kapitalın investisiyaya transformasiyası proseslərinin təşviqi, yeniliklərə həssaslığın maliyyə təminatında həlledici rola malik dövlət-özəl bölmə əməkdaşlığının inkişafı; ixrac potensialının gücləndirilməsi, o cümlədən ixracyönümlü istehsalın maddi-texniki bazasının modernləşdirməsi; iqtisadi mərkəzəqaçma meyillərini yumşaldan innovasiya və investisiya infrastrukturu şəbəkəsinin yaradılması, elmtutumlu fəaliyyətə üstünlük verilən yüksək texnoloji sahələrə investisiyaların fəal surətdə cəlb edilməsi.

Regional iqtisadiyyatın innovasiyalı-intensiv inkişafı prioritetlərinin əsaslandırılması prosesində Azərbaycanda dinamik və dayanıqlı inkişafı təmin edən aşağıdakı problemlərə xüsusi diqqət yetirilməlidir: investorların və investisiyalaşma obyektləri olan istehsal və xidmət müəssisələrinin əhəmiyyətli hissəsinin maliyyə durumunun zəifliyi, innovasiyalı-intensiv inkişafın normativ - hüquqi bazasının təşəkkül mərhələsində olması, innovasiyalı-intensiv inkişafı prioritetlərində ortaq potensiallı regionların məcmu imkanlarından istifadə mexanizminin institusional maneələrlə şərtlənən ətalətliliyi səbəbindən investisiya risklərinin yüksək səviyyədə olması.

Regional səviyyədə innovasiyalı-intensiv inkişafa adekvat investisiya siyasətinin səmərəliliyini yüksəltmək üçün regionların investisiya resursları ilə dayanıqlı təminatı üçün sərbəst maliyyə vəsaitlərinin investisiyaya transformasiyası proseslərindən tutmuş, şaxələndirilən istehsal fəaliyyətinə yönəldilmiş investisiyalardan istifadə səmərəliliyinin yüksəldilməsini nəzərdə

tutan kompleks tədbirlər həyata keçirilməli, regionların inkişafında multiplikasiya effektini təmin edəcək sahələrə investisiyalar artırılmalı, mərkəzləşdirilmiş mənbələrdən, müxtəlif kanallarla regionlara yönəldilən investisiya resurslarının məqsədli istifadəsi prosesinə nəzarət mexanizmi təkmilləşdirilməli, tarazlı və dayanıqlı regional inkişaf tələblərinə adekvat investisiya siyasəti prioritetlərinin reallaşmasını təmin edən investisiyalaşma sistemi formalaşdırılmalıdır.

Multiplikasiya effekti investisiya prosesləri ilə, həmin proseslər isə investisiya axınlarının xarakteristikaları ilə əlaqədardır. Milli iqtisadi təhlükəsizliyə gəldikdə isə onun maliyyə, o cümlədən investisiya axınlarından təcrid olunmuş şəkildə nəzərdən keçirilməsinin qeyri-mümkünlüyünü qeyd etməliyik. Əlbəttə, milli iqtisadi təhlükəsizliyin əsas komponentlərinin (ərzaq və enerji təhlükəsizliyi) təminatında bu və ya digər regionun oynadığı rol, onun investisiya cəlbediciliyi və həmin cəlbediciliyin real nəticələri xüsusi diqqət mərkəzində olmalıdır.

Əsas kapitala yönəldilən investisiyaların səmərəliliyinin artırılması, milli və regional iqtisadiyyat səviyyəsində multiplikasiya effektini gücləndirir. Əksər tədqiqatçılar da belə bir mövqedədir ki, investisiyaları, multiplikasiya effektinin gücləndirilməsi baxımından artırılmasının ən perspektivli istiqaməti əsas kapitala qoyuluşların məcmu səmərəliliyini yüksəltməkdir. Məlum olduğu kimi dövlətin pul-kredit siyasətinin prioritetləri, o cümlədən faiz dərəcələrində dəyişikliklər investisiyalara birbaşa təsir edir. Odur ki, faiz dərəcələrini (bankların və sair kredit təşkilatlarının) aşağı salmaqla investisiyaları və multiplikasiya effektini gücləndirmək olar.

Dövlət investisiyalarının və məhsulların tədarükünün genişləndirilməsi hesabına investisiya tələbatını daha yüksək səviyyədə ödəməklə, multiplikasiya effektini artırmaq mümkündür. Məsələ ondadır ki, regionun dayanıqlı inkişafı üçün ilkin investisiya impulsu, adətən kifayət etmir. Bu məqsədlə, region özünü dəstəkləyən artım rejiminə, başqa sözlə mərkəzləşdirilmiş qaydada əldə olunan vəsaitdən asılılığın azaldılmasını nəzərdə tutan rejimə keçirilməlidir.

Regionun investisiya potensialından istifadənin inteqral imkanlarını reallaşdırmağa imkan verən proqram-məqsədli yanaşma ərazi-istehsal komplekslərinin inkişafının tempini yüksəltməklə multiplikasiya effekti yarada bilir. Regional inkişaf proqramlarının investisiya təminatı sisteminin təkmilləşdirilməsi milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinin mühüm istiqamətidir.

Ölkənin regionlarında sosial-iqtisadi inkişafın və onun yaratdığı multiplikasiya effektinin dövlətin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət baxımından məqsədəuyğun hesab edilən iqtisadi və institusional xa-

rakterli fəaliyyətin prioritet istiqamətlərinə aşağıdakılar aid edilməlidir: resurslardan istifadənin antiböhran idarə edilməsi sisteminin qurulması, resurs qoruyuculuq imkanlarına malik texnologiyaların tətbiq dairəsinin genişləndirilməsi, bərpa olunan enerji mənbələrindən istifadənin, korporativ potensialı gerçəkləşdirən mütərəqqi mexanizminin formalaşdırılması, proqram-məqsədli fəaliyyətin maliyyələşdirilməsinin bütün imkan və vasitələri kompleksində çoxvariantlı inkişaf ssenarilərindən istifadə və kompüter imitasiyalarının reallaşdırılmasını nəzərdə tutan yanaşmaların üstünlüyünün təmin edilməsi, regionun investisiya potensialından səmərəli istifadə edilməsi üçün innovasiya infrastrukturunun formalaşdırılması prosesinin sürətləndirilməsi, müvafiq təşviq mexanizminin yaradılması, dövlət və özəl bölmə tərəfdaşlığının innovativ əsasda inkişaf etdirilməsi, regionun innovasiyalı inkişafının dəstəklənməsi üçün informasiya-məsləhət xidməti şəbəkəsinin yeni formatda qurulması, regionda istehsal edilən məhsulların ənənəvi və yeni bazarlara çıxarılmasının mütərəqqi forma və üsullarının tətbiqi, yeni məhsulların bazarın müvafiq seqmentlərində mövqe qazanması üçün kompleks tədbirlərin həyata keçirilməsi, regional çərçivədə həyata keçirilən maliyyə vasitəçiliyində, istehsala və ixraca dövlət dəstəyi imkanlarından istifadəyə imkan verən kooperasiyanın genişləndirilməsi.

Dissertasiyanın sonunda regional inkişaf proqramlarının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsinə dair yeni elmi yanaşmalar, ümumiləşdirmələr və yetərli elmi-təcrübi əhəmiyyətə malik dəyərli nəticə və təkliflər verilmişdir.

Dissertasiya işinin mövzusu üzrə aşağıdakı məqalələr və elmi işlər nəşr edilmişdir:

1. Regional inkişafın investisiya siyasəti: formalaşma və reallaşma məsələləri // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri №4. Bakı, 2014, s.149-155.

2. Regional sosial-iqtisadi inkişafın konseptual məsələləri // "Müasir mərhələdə kənd təsərrüfatının intensivləşdirilməsinin və iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri" mövzusunda elmi-praktik konfransın materialları. Gəncə, 29-30 may 2014, s.106-110.

3. Regional inkişafın maliyyə-kredit təminatı problemləri // "Kooperasiya" elmi-praktiki jurnal №4 (35) Bakı, 2014, s.219-225.

4. Regional inkişaf prioritetlərinin əsaslandırılması və reallaşdırılmasının metodiki və informasiya aspektləri // Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, Gəncə şəhər İcra Hakimiyyəti və Azərbaycan Dövlət Aqrar Universitetinin birgə keçirdikləri "Müasir aqrar elm: qloballaşma şəraitində əsrin aktual problemləri və inkişaf perspektivləri" mövzusunda

beynəlxalq elmi-praktiki konfransın materialları. II cild, Gəncə, 22-24 sentyabr 2014, s.289-292.

5. Azərbaycanın investisiya potensialının reallaşdırılmasının regional mühiti // Aqrar Elm Jurnalı, №2, Bakı, 2015, s.134-139.

6. İnvestisiya potensialının tarazlı regional inkişafa yönəldilməsinin iqtisadi və institusional məsələləri // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri № 2. Bakı, 2015, s.115-122.

7. Regional inkişafda maliyyə amili // "Kooperasiya" elmi-praktiki jurnal №3 (38). Bakı, 2015, s.5-9.

8. Azərbaycanda bankların və onların regional şəbəkəsinin fəaliyyət mühitinin bəzi xarakteristikaları. Az. ETKTİ və Tİ-nun Elmi əsərləri № 3, 2015, s.114-120.

9. Tarazlı regional inkişaf və dayanıqlı bank fəaliyyətinin birgə tənzimlən-məsinin metodiki və informasiya aspektləri. // Aqrar Elm Jurnalı № 4, Bakı, 2015, s.7-11.

10. The role of banks in the implementation of the priorities of regional potential // International Conference "Global Science and Innovation". USA, Chicaqo, June 22-23, 2016, p.143-151.

11. Possibilities to increase efficiency in the utilization of investment policy in the sustainable development of regions. Sciences of Europe № 5 (5), vol 1,Praha,2016, p.9-12.

12. Regional resurs potensialından səmərəli istifadə mühitinin formalaş-ması və maliyyə vasitəçiliyi amili // Azərbaycan Dövlət Aqrar Universitetin-də "Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq" mövzusunda 8-ci beynəlxalq elmi-praktik konfransın materialları. II cild. Gəncə, 03-04 oktyabr 2016-cı il, s.308–313.

13. The Diversification of Production and the priorities of the adequate investment policy to the innovation – intensive development in the regions // Türk Dünyası Araştırmaları Uluslararası İlimlər Akademisi. VIII. Uluslar-arası sempozyum bildirileri. II cilt. Ekonomi ve Teknik Bilimler. Ankara / Türkiye-2016, s.21-27.

14. Regionlarda sosial-iqtisadi inkişafın multiplikasiya effekti və milli iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi // Audit jurnalı, Bakı № 4, 2016, s.95-102.

15. Regional potensialdan istifadə prioritetlərinin reallaşdırılmasında bankların rolu// KTİETİ-nun Elmi əsərləri, Bakı, 2016, №4, s.55-60.

16. Исполнение первой Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики и новые возможности. Москва, №1,2017, стр. 51-56.

17. Пути повышения эффективности финансово-кредитного обеспечения региональных программ социально-экономического развития. Научно-практический журнал «Современная наука: актуальные проблемы теории и практики». Серия «Экономика и право». Москва, №2, февраль, 2017, с.49-53.

18. Regionlarda istehsalın şaxələndirilməsinin investisiyalaşdırılması prioritetləri. 12 oktyabr 2017-ci il tarixdə AMEA-nın müxbir üzvü, i.e.d., professor Akif Musayevin anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 50 illiyinə həsr olunmuş "Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2017,s.209-213, 0,4 ç.v.

19. Regional sosial-iqtisadi inkişaf proqramlarının maliyyə-kredit təminatının səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Az. ETKTİ və Tİ-nun Elmi əsərləri. Bakı, №1, 2017, s.75-80.

20. Regional sosial-iqtisadi inkişaf proqramlari: maliyyə-kredit təminati və səmərəlilik. Monoqrafiya. "Kooperasiya" nəşriyyatı. Bakı, 2017, 290 s.

21. Tarazlı sosial-iqtisadi inkişafın maliyyə təminatının metodiki məsələləri. Az. ETKTİ və Tİ-nun Elmi əsərləri. Bakı, №3, 2017, s.67-76.

22. Regional sosial-iqtisadi inkişafın maliyyə təminatı sisteminin təkmilləşdirilməsi məsələləri. "Maliyyə və uçot jurnalı" № 12. Bakı, 2017, s. 21-28.

23. Regional istehsal və resurs potensialının formalaşması və səmərəli istifadəsində bankların rolu. "Azərbaycan Aqrar Elmi" jurnalı. Bakı, № 4, 2017, s.184-188.

24. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə I və II Dövlət Proqram"larının icrası nəticələri. Az. ETKTİ və Tİ-nun Elmi əsərləri. Bakı, 2017, №4, s.87-94.

25. Problems of financial and investment support modelling of the regional social and economic development. Journal Transylvanian Review. Volume XXVI, No. 28, 2018. Thomson Reuters-Social Sciences Cultural Studies. Romania-2008. ISSN 12211249, 15849422.

**Айгюн Эльдар кызы Кулиева**

# Финансово-кредитное обеспечение программ регионального развития Азербайджанской Республики и проблемы повышения его эффективности

## РЕЗЮМЕ

Диссертация состоит из введения, пяти глав, выводов, списка использованной литературы. Во введении обоснована актуальность темы, определены цель и задачи исследования, изложена научная новизна, теоретическая и практическая значимость работы.

В первой главе исследованы концептуальные основы регионального социально-экономического развития, определены методические и информационные аспекты обеспечения приоритетов регионального развития, изучены научно-теоретические и практические проблемы финансово-кредитного обеспечения регионального развития, изложены подходы по актуальным научно-теоретическим и практическим вопросам обоснования критерий, определению средств и инфраструктурному обеспечению инвестиционной политики.

Во второй главе дана характеристика инвестиционного потенциала Азербайджанской Республики и региональной среды ее реализации, исследованы экономические и институциональные аспекты использования инвестиционного потенциала для сбалансированного развития регионов, оценены возможности повышения эффективности использования инвестиционного потенциала в социально-экономическом развитии регионов.

В третьей главе анализированы результаты реализации «Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики (2004-2008 годы)», оценены результаты реализации «Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики на период 2009-2013 годы», результаты двух программ регионального развития и характеризована среда реализации «Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики на период 2014-2018 годы».

В четвертой главе проанализирована среда деятельности банков и факторы, обуславливающие процессы формирования региональной банковской сети. Далее исследованы проблемы формирования совместной системы регулирования сбалансированного регионального раз-

вития и устойчивой банковской деятельности, оценена роль банков в реализации приоритетов использования производственного и ресурсного потенциала региона.

В пятой главе определены основные направления повышения эффективности финансово-кредитного обеспечения региональных программ социально-экономического развития, обоснованы приоритеты диверцификации производства и инвестиционной политики, адекватной сбалансированному развитию регионов. Определены направления реализации мультипликационного эффекта социально-экономического развития регионов и укрепления национальной экономической безопасности.

В конце работы сформулированы результаты исследования, изложены рекомендации и предложения соискателя, имеющие научно-теоретическое и практическое значение.

**Aygun Eldar Guliyeva**

## Financial credit provision of programs of the Azerbaijan Republic regional and development problems of its efficiency increasy

## RESUME

The dissertation consists of introduction, 5 chapters, conclusion and the list of used literature. The actuality of themes have been based, the aims and task of research have been identified, the scientific innovation, theoretical and practical importance of work have been expounded in the introduction.

The conceptual basis of regional social economic development have been researched, the methodical and informative aspects of provision of regional development priorities have been indentified, scientific-theoretical and practical problems of financial credit provision of regional development have been learned, the approaches to the actual scientific theoretical and practical questions of the establishment of criteria, determination of means and infrastructural of provision of investment policy have been expounded in the 1st chapter.

The investment potential characteristics of the Azerbaijan Republic and regional environment of its realization have been given, the economic and institutional aspects of the using of investment potential for the balanced development of regions have been researched, the efficiency increase opportunity of using the investment potential in the social economic development of regions have been estimated in the 2nd chapter.

The results of realization "The state programs of social economic development of the Azerbaijan Republic regions (2004-2008)" have been analyzed, the results of realization of "The state programs of social economic development of the Azerbaijan Republic regions during the period 2009-2013", the results of two programs of regional development have been estimated and the environment of realization of "The state programs of social economic development of Azerbaijan Republic regions during the period 2014-2018" have been characterized in the 3rd chapter.

Firstly the activity environment of banks and factors that determined the process of the formation of regional bank net have been analyzed in the 4th chapter. Then the problems of the formation of joint system of regular balanced regional development and sustainable bank activity have been researched in the chapter. At last, the role of banks in the realization of

applying of industrial priorities and resource potential of the region have been estimated in the chapter.

The main directions of the increase efficiency of financial security of regional program of social economic development have been identified, the priorities of diversification of manufacturing and investment policy and adequate balanced development of regions have been defined in the 5th chapter. The directions of realization of animated effect of social-economic development of regions and the strengthening of national economic safety have been identified in the chapter.

The results of the research and suggestions that have the scientific-theoretical and practical importance have been formed at the end of the work.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**КУЛИЕВА АЙГЮН ЕЛЬДАР КЫЗЫ**

# ФИНАНСОВО – КРЕДИТНОЕ ОБЕСПЕЧЕНИЕ ПРОГРАММ РЕГИОНАЛЬНОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ПРОБЛЕМЫ ПОВЫШЕНИЯ ЕГО ЭФФЕКТИВНОСТИ

**5312.01 – «Отраслевая экономика»**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора наук по экономике

**Баку – 2018**